19 iyul 2019 №52 (1637) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan milli mətbuatının 144 yaşı tamam olur

Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 144 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında yeni səhifə açılıb.

Vətənpərvər ziyalı Həsən bəy Zərdabi böyük əzab-əziyyətdən sonra ana dilində ilk qəzetin çapına müvəffəq olmuşdu. 1875-ci ilin 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb.

davamı səh. 2-də

## Multikulturalizmin Azərbaycan modeli

"Bakı Mədəniyyətlərarası Gənclər Forumu: dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı I Beynəlxalq Gənclər Forumu çərçivəsində plenar sessiyalar keçirilib. "Multikulturalizm siyasəti və multikulturalizmin Azərbaycan modeli" mövzusunda keçirilən sessiyada ölkəmizin bu sahədə təcrübəsindən ətraflı bəhs edilib.

Sessiyada Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı sahəsində reallaşan layihələrdən söz açılıb. Bildirilib ki, "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

səh. 3

## Almaniya jurnalında Şəki Xan sarayı haqqında məqalə dərc edilib

Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzinin UNESCO-nun Dünya irs siyahısına daxil edilməsi ölkəmizdə və dünyada geniş rezonans doğurub. Bir sıra ölkələrin mətbuat orqanlarında bu əlamətdar hadisə ilə bağlı yazılar dərc olunur.

Almaniyanın "Mortimer Reisemagazin" jurnalında da Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzinin Dünya irs siyahısına salınmasına həsr olunan məqalə dərc edilib.

səh. 4



## Çıraqqala abidəsində bərpa işləri aparılacaq

Şabran rayonu ərazisində yerləşən, V-VI əsrlərə aid Çıraqqala abidəsində bərpa işlərinə başlanılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin mart ayında imzaladığı sərəncama əsasən, ölkəmizin ən qədim tarixi abidələrindən biri olan Çıraqqalada möhkəmləndirmə və bərpa-konservasiya işlərinin aparılması üçün 2 milyon manat ayrılıb. Ötən müddət ərzində bərpa-konservasiya işlərinin aparılması üçün zəruri tədbirlər həyata keçirilib, layihə-smeta sənədləri hazırlanıb. İyul ayının əvvəlindən isə bərpa işlərinə start verilib.

davamı səh. 2-də

# Bakıda Avropa Gənclər Yay Olimpiya Festivalı başlanır

### İyulun 21-dən 27-dək davam edəcək festivala 50 ölkədən 4 minə yaxın iştirakçı gələcək

Son illər ölkəmizin uğurla ev sahibliyi etdiyi beynəlxalq festival və idman yarışlarının sırasına daha biri əlavə olunur. İyulun 21-də Azərbaycan paytaxtında Avropa Gənclər Yay Olimpiya Festivalı başlanır. Bu tədbirin özəlliyi onun formatında – gənclərin idman yarışlarının festival şəklində keçirilməsindədir.




"Bakı 2019" Avropa Gənclər Yay Olimpiya Festivalının açılış mərasimi Bakı Kristal Zalında gerçəkləşəcək, yarışları isə paytaxtın müxtəlif idman komplekslərində təşkil olunacaq.

Avropa Gənclər Yay Olimpiya Festivalı ilk dəfə 1991-ci ildə Belçika Krallığının paytaxtı Brüsseldə keçirilib. İki ildə bir dəfə Avropa Olimpiya Komitələrinə üzv olan dövlətlərin iştirakı ilə reallaşan festivalın XV yarışları Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 50 ölkədən 4 minə yaxın idmançı və texniki heyət gələcək. Yığmamız yarışlarda 122 atletlə təmsil olunacaq. Atletlər idmanın 10 növü – gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar.

Xatırladaq ki, festivalın Bakıda layiqincə, yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin 2018-ci il 15 may tarixli sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb.

Festivalın Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərovun bildirdiyinə görə, ölkəmizdə keçirilən I Avropa Oyunları (2015) və IV İslam Həmrəyliyi Oyunlarından (2017) fərqli olaraq, bu dəfə daha sadə və daha kiçik tutumlu stadionlara üstünlük verilib. İdmançılar 14-18 yaşlarında olan atletlərdir.

davamı səh. 2-də

# Qəbələ festivalı yenidən dünya musiqiçilərini bir araya gətirəcək

2009-cu ildə əsası qoyulan və ötən müddətdə dünya musiqi xəritəsində özünə layiqli yer qazanan Qəbələ Beynəlxalq Musiqi Festivalı növbəti dəfə sənətsevərlərin görüşünə gələcək.



Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holding"in dəstəyi ilə keçirilən XI Qəbələ Beynəlxalq Musiqi Festivalı dünya musiqiçilərini bir araya gətirəcək. Xarici və yerli musiqiçilərin rəğbətini qazanan, gözəl bir ənənəyə çevrilən festival bu dəfə 31 iyul – 5 avqust tarixlərində reallaşacaq.

Qəbələ festivalında Azərbaycanla yanaşı, müxtəlif ölkələrdən görkəmli musiqiçilər, ifaçılar iştirak edəcək. Festivalda klassik musiqi ilə yanaşı, muğam, vokal, kamera musiqisi axşamları təşkil olunur. Budəfəki musiqi bayramına Rusiya, ABŞ, Macarıstan, Türkiyə, İtaliya, Gürcüstan, Çin, Ukrayna kimi ölkələrdən tanınmış ifaçı və kollektivlər, həmçinin Azərbaycanın musiqi kollektivləri dəvət olunub.

İyulun 31-də festivalın ilk konsertini Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə simfonik orkestri verəcək. Cavad Tağızadənin dirijorluğu ilə gerçəkləşəcək konsertdə solistlər Taleh Yahyayev (bariton), Nigar Cəfərova (soprano), Mahir Tağızadə (bariton), Rəsul Əliyev (fleyta), Nəzrin Aslanlı (violin), Safura Aslan (vokal), Məhəmmədəli Paşazadə (klarnet) Azərbaycan və dünya bəstəkarlarının əsərlərini təqdim edəcəklər.

1 avqust tarixində festivalın təntənəli açılış mərasimi olacaq. Mərasimdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışı gözlənilir. Həmin gün Əməkdar incəsənət xadimi, professor Fəxrəddin Kərimovun dirijorluğu ilə xalq artistləri Ülviyyə Hacıbəyova (piano) və Yeganə Axundova (piano) da səhnəyə çıxacaq. Hər il olduğu kimi, bu dəfə də festivalın proqramı zəngin və maraqlıdır.

# "Çox faciələrin kökündə lənət durur"

### Xristo Stoyçev: "Səhnə əsəri bunun səbəbini tamaşaçıdan soruşmalıdır"

Neçə vaxtdan bəri eşitmişik ki, tanınmış bolqar teatr rejissoru Xristo Stoyçev Bakıdadır. Yəni o, paytaxtımıza daha öncə də səfərlər edib, budəfəki gəlişi isə sırf yaradıcı işbirliyi ilə bağlıdır. Stoyçev Yuğ Dövlət Teatrında V.Şekspirin "III Riçard" pyesi əsasında özünün səhnə redaksiyasında "Lənət" adlı tamaşa qurmaq üçün gəlib.

Dövlət sifarişi ilə hazırlanan tamaşa yeni mövsüm üçün nəzərdə tutulsa da, rejissor səhnə əsərini bu ay təhvil verib ölkəsinə qayıdacaq. Tamaşanın rejissoru Günay Səttar, bəstəkarı Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, quruluşçu rəssamı Olqa Boseva (Bolqarıstan), geyim rəssamı Elnarə Bəkirovadır.

"Lənət" iki heyətdə hazırlanır. Amma bu, bizim alışdığımız kimi, ayrı-ayrı vaxtlarda iki heyətin oynayacağı tamaşa deyil. Bəzi aktyorlar hər iki heyətdə rol alsa da, teatr iki fərqli quruluşda tamaşa qazanmış olacaq. Rolları əməkdar artistlər Sonaxanım Mikayılova, Qasım Nağı, aktyorlar Oktay Mehdiyev, Natəvan Qeybani, Zümrüd Qasımova, Əmrah Hacıyev, Təranə Ocaqverdiyeva, Elgün Həmidov oynayır. Hər iki heyətin, demək olar ki, yekun məşqinə baxdığımız üçün deyə bilərik ki, çox maraqlı tamaşa olacaq.

davamı səh. 5-də

## Tara həsr olunmuş ömür

XX əsrin birinci yarısında Üzeyir Hacıbəylinin istedadlı gənclərə himayədarlığı və qayğısı sayəsində ifaçılığa və yaradıcılığa qədəm qoyan musiqiçilərdən biri də Adil Gəray Məmmədbəyli olmuşdur.

Adil Gəray sənətdə ilk addımlarını tar aləti ilə atmış, bütün yaradıcılığını və fəaliyyətini bu ecazkar milli alətə bağlamış, ifaçı, müəllim və bəstəkar kimi səmərəli və dəyərli fəaliyyət göstərmişdir. Ötən əsrin 30-cu illərində, Dövlət Musiqi Texnikumunda ixtisas fənni üzrə Ü.Hacıbəyli və S.Rüstəmovdan, muğam sənəti üzrə Ə.Bakıxanovdan dərs almışdır.

səh. 6

## Heykəllərlə şəhər gəzintisi

Qədimliklə müasirliyin qovuşduğu Bakı şəhərində müxtəlif mədəniyyətlərin, Qərb və Şərq memarlığının, fərqli sənət cərəyanlarının izlərinə, eyni zamanda özünəməxsus sintezinə rast gəlmək olar. "Heykəllərlə şəhər gəzintisi"ndə bu dəfə paytaxtda ucaldılmış müxtəlif xalqların tanınmış şəxsiyyətlərinin abidələri haqqında söz açacağıq.

Bu abidələr Bakının gözəlliyinə yeni çalarlar bəxş etməklə yanaşı, şəhərin mədəni zənginliyinə də töhfələr verir. Bu heykəllər həm də ölkəmizin multikultural məkan olmasının daha bir sübutudur.

səh. 7

## Cenevrədəki BMT kitabxanalarına nəşrlər hədiyyə edilib



səh. 3

## Ankarada TÜRKSOY kuboku uğrunda at yarışması təşkil olunub

səh. 8

## Bakı Uşaq Teatrı mövsümə yekun vurdu



səh. 4

№52 (1637)
19 iyul 2019
www.medeniyyet.az

## Çıraqqala abidəsində bərpa işləri aparılacaq

əvvəli səh. 1-də



Çıraqqala mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formada olub. İndi həmin bürclərin ancaq üçü salamat qalıb. Ümumilikdə isə qalanın izləri məlum olan 8 bürcündə bərpa-konservasiya işləri həyata keçiriləcək. Görüləcək işlər zamanı bürclərarası qala divarları da bərpa-konservasiya olunacaq, ərazidə arxeoloji tədqiqatlar aparılacaq. Tarixi abidəni ziyarət edənlərin rahatlığını təmin etmək məqsədilə ərazidə yerləşən meşənin içindən qalaya qalxacaq piyadalar üçün yol, eləcə də qala divarları boyu yol salınacaq.

Çıraqqalanın bərpası üzrə işlərin bir il ərzində yekunlaşdırılması nəzərdə tutulub. Lakin ərazinin mürəkkəb relyefi və hava şəraiti bu müddətin uzanmasına təsir edə bilər.

## Milli Mətbuat Günü münasibətilə “Açıq kitabxana”

Zərdab rayon Mərkəzi Kitabxanası şəhər 38 saylı kitabxana filialı ilə birgə 22 iyul – Milli Mətbuat Günü münasibətilə “Açıq kitabxana” guşəsi təşkil edib.

Qaçqın və köçkünlərin məskunlaşdığı Peşə liseyində təşkil edilən tədbirdə əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın tarixi, “Əkinçi” qəzetinin ənənələrinin yaşadılmasından bəhs olunub.

“Açıq kitabxana”da uşaqlar üçün maraqlı kitab və jurnallar da sərgilənib. Uşaqlar kitabxanaya üzv yazılıblar.

## “Gənc liderlər üçün yay məktəbi”nin iştirakçıları Lerikdə

Yeni Azərbaycan Partiyasının təşkil etdiyi ”Gənc liderlər üçün yay məktəbi”nin ikinci turu çərçivəsində Lerik rayonuna gələn gənclər mədəniyyət ocaqları ilə tanış olublar.



Onlar Uzunömürlülər, Bayraq və Tarix-diyarşünaslıq muzeyləri, Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Layihə iştirakçıları “Yaradıcı gənclərin inkişafına dövlət dəstəyi” mövzusunda təlimə qatılıblar.

## Ukrayna telekanalında Naftalan haqqında reportaj

Ukraynanın ”5-ci kanal” televiziyası Azərbaycan haqqında növbəti reportajını yayımlayıb.




Reportajda Naftalan müalicəvi kurort turizm mərkəzi barədə geniş məlumat verilib. Qeyd edilib ki, Naftalan nefti bir çox xəstəliklərin müalicəsi üçün dünyaca tanınır. Naftalanda xarici turistlərdən alınan müsahibələrdə onun üstünlüyü barədə tamaşaçılara geniş məlumat verilir.

Naftalanda yaradılan şəraitə heyran olan aparıcı Nadya Baziv insanların qonaqpərvərliyini xüsusi vurğulayıb.

## “Ən yaxşı çıxış edən ölkə”

İstanbul Universitetində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyinin üzvləri Beynəlxalq Tələbə Dərnəkləri Federasiyası (UDEF) tərəfindən təşkil edilən XII Beynəlxalq Tələbə Görüşü və digər əhəmiyyətli tədbirlərdə aktiv iştirak etdiklərinə görə mükafatlandırılıblar. Birlik ”Ən yaxşı çıxış edən ölkə” nominasiyası üzrə təltif olunub.

“Ən yaxşı çıxış edən ölkə” nominasiyası üzrə sertifikat Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyinin qurucusu Rəşid Həsən Mustafazadəyə təqdim edilib. Eyni zamanda, birliyin fəal üzvləri təşəkkürnamələrlə təltif olunub.

Xatırladaq ki, bu ilin aprel ayında İstanbulda UDEF tərəfindən təşkil edilən XII Beynəlxalq Tələbə Görüşündə 70-ə yaxın ölkə təmsil olunmuşdu.

# Bakıda Avropa Gənclər Yay Olimpiya Festivalı başlanır

### İyulun 21-dən 27-dək davam edəcək festivala 50 ölkədən 4 minə yaxın iştirakçı gələcək

əvvəli səh. 1-də

Açılış və bağlanış mərasimləri üçün biletlərin qiyməti 15 manat təşkil edir. Oyunlara giriş isə pulsuzdur. Yarışları izləmək istəyən şəxslər yalnız şəxsiyyət vəsiqəsi ilə bilet satılan köşklərə yaxınlaşıb pulsuz bilet əldə edə bilərlər. Bir tamaşaçı pulsuz ən çox dörd bilet ala bilər. Stadionlara biletsiz gələn şəxslər içəri buraxılmayacaq. Hazırda biletlərin 60-62 faizi satılıb.

Korporativ direktorun sözlərinə görə, yarışları işıqlandırmaq üçün 200-dən artıq əcnəbi jurnalist akkreditasiyadan keçib. Yarışların yayım hüququ Azərbaycan Televiziyasına aiddir.

Müxtəlif dövlət qurumları, o cümlədən Daxili İşlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Mədəniyyət, Təhsil və s. nazirliklər, AZAL, festivalın uğurla reallaşması üçün Əməliyyat Komitəsi ilə əməkdaşlıq edir.




Qeyd edək ki, 21-27 iyul tarixində keçiriləcək festival zamanı 12 idman obyektində 3500-dən çox könüllü fəaliyyət göstərəcək. Eyni zamanda onlar şəhərin müxtəlif yerlərində təbliğat və yardım işlərini həyata keçirəcəklər.

Festivalın rəmzi talismanları olan “Cırtdan” və “Bəbir”i şəhərin müxtəlif yerlərində görmək mümkündür. Bu personajlar paytaxtın park və mərkəzi küçələrində sakinlərlə görüşür, xüsusilə balacaların istirahətinin səmərəli təşkilində yaxından iştirak edirlər.

# Azərbaycan milli mətbuatının 144 yaşı tamam olur

əvvəli səh. 1-də

“Əkinçi” qəzetində dövrün görkəmli alim və ziyalılarının – Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin “Vəkili-naməlumi millət” imzası ilə məqalələri dərc olunurdu.

Azərbaycan milli mətbuatının zəngin inkişaf yolu ictimai fikir tariximizin mühüm bir hissəsidir. Milli mətbuatımız “Əkinçi” ilə başlanan maarifçilik, yeniləşmə, çağdaş mədəni təfəkkür xəttini davam etdirərək xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynayıb. Zərdabi və onunla birlikdə bu qəzetdə əməyi olan maarifpərvər yazarlar xalqı cəhalət və qəflət yuxusundan oyatmağa çalışırdılar. Təbii ki, bütün bunlar dövrün hakim dairələrini rahatsız etməyə bilməzdi. Üstəlik, çarizmin diktəsi ilə özlərini “ziyalı” sayan bəzi üzdəniraqlar da “Əkinçi”nin üzərinə hücuma keçirdilər. Beləliklə, 1877-ci il sentyabrın 29-da “Əkinçi” öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının təməlini qoyan bu qəzet, ikiillik ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. “Əkinçi”dən sonra onun yolunu milli mətbuatın yeni səhifələrini açan “Ziya”, “Kəşkül”, “Kaspi” və digər qəzetlər davam etdirdi.



Mətbuat özlüyündə cəmiyyətin aynası, ictimai şüurun, mənəviyyatın inikasıdır. Bu baxımdan Azərbaycan milli mətbuatı tarixinin ilk səhifələrindən həm də milli-mənəvi dəyərlərimizin daşıyıcısı, fəal təbliğatçısı və qoruyucusu kimi məsul bir missiyanı da yerinə yetirib. Həsən bəy Zərdabinin fəaliyyəti bu baxımdan böyük örnəkdir. Zərdabi 1873-cü ildə peşəkar milli teatrımızın yaranmasında, ilk teatr tamaşasının hazırlanmasında yaxından iştirak etmişdi. O, mütəfəkkir bir ziyalı kimi xalq yaradıcılığına dərindən bələd idi, folklor musiqi nümunələrimizi toplayır, “Əkinçi” qəzetində dərc etdirir, həmçinin dövrün ziyalılarını bu təşəbbüsə qoşulmağa çağırırdı. “Əkinçi” fəaliyyətini dayandırandan sonra da Zərdabi bu yöndə fəaliyyətini davam etdirirdi və 1901-ci ildə ilk dəfə “Türk nəğmələri məcmuəsi”ni nəşr etdirərək bu zəngin mənəvi xəzinəmizin qorunub saxlanmasına töhfəsini verdi. Bu bir mətbuat xadiminin, ziyalının xalqın milli ruhuna yaradıcı münasibətinin göstəricisidir. Bu, günlər Həsən bəy Zərdabinin, onun açdığı cığırı davam etdirən digər ziyalılarımızı yada salarkən, onların milli-mədəni irsə fədakar münasibətini, bu yolda fəaliyyətlərini də minnətdarlıqla yad edirik.

## Marneulidə Nəsimi poeziya günü

Marneulidə dahi Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuş poeziya günü keçirilib. Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) təşkil etdiyi tədbirdə ziyalılar, məktəblilər iştirak edib.

GAİM-in icraçı direktoru Aygül İsayeva çıxış edərək Nəsiminin yaradıcılığı barədə məlumat verib. Faxralı kənd Arif Əliyev adına 1 nömrəli ictimai məktəbin müəllimləri Fatma Əliyeva, Səyyad Allahverdiyev, Səmayə Musayeva Nəsimi poeziyasının fəlsəfəsindən söhbət açıb, şairin yaradıcılığı barədə məruzə ilə çıxış ediblər.



Nəsiminin 650 illik yubileyinin Azərbaycanda, eləcə də xarici ölkələrdə azərbaycanlılar tərəfindən layiqincə qeyd olunduğu vurğulanıb. Bildirilib ki, şairin şeirləri müxtəlif dillərə, o cümlədən gürcü dilinə tərcümə edilib. Nəsimi əsərləri istedadlı tərcüməçi Oqtay Kazımov və gürcü şairi Zezva Medulaşvili tərəfindən tərcümə edilərək gürcü oxucularına çatdırılıb. Tədbirdə mükəmməl tərcümə üçün hər iki tərcüməçiyə təşəkkür edilib.

Sonra məktəblilər Nəsiminin şeir və qəzəllərini söyləyiblər. “Nəsimi” filmi nümayiş etdirilib.

## Nəsimi irsinin nurunda

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr edilmiş ”Nəsimi poeziyasının nurunda” adlı dəyirmi masa keçirilib.



Kitabxananın direktoru Oruc Quliyev tədbiri açaraq Nəsimi irsinin Azərbaycan klassik ədəbiyyatında yerindən bəhs edib.

Kitabxananın elmi işlər üzrə direktor müavini Xalidə Musayeva, filologiya üzrə fəlsəfə doktorları Zəkulla Bayramlı, Xədicə İsgəndərli və başqaları çıxışlarında Nəsimi yaradıcılığının Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında rolunu xüsusi qeyd ediblər.

Azərbaycan Milli Konservatoriyasının tələbəsi Arzu Məmmədova Nəsiminin sözlərinə bəstələnmiş musiqi nömrələri ifa edib. Aktrisa Zülfiyyə Eldarqızı Nəsiminin “Etməgil”, “İstəmə” qəzəllərini söyləyib.

Dəyirmi masanın sonunda “Məndə sığar iki cahan” adlı kitab sərgisinə baxış keçirilib.

## Timur Əsgərov şahzadə Ziqfrid obrazını canlandıracaq

Sentyabrın 11-də Sankt-Peterburq Dövlət Akademik Mariinsk Teatrında Pyotr Çaykovskinin ”Qu gölü” baleti nümayiş etdiriləcək.



“Mariinsk – 2” səhnəsində təqdim ediləcək baletdə Azərbaycanın Əməkdar artisti Timur Əsgərov şahzadə Ziqfrid obrazını canlandıracaq.

T.Əsgərov 2008-ci ildə Bakı Xoreoqrafiya Akademiyasını bitirib, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, Ukrayna Milli Akademik Opera və Balet Teatrında çalışıb. O, 2011-ci ildən Mariinsk teatrının truppasında fəaliyyət göstərir.

## Violonçel ifaçısı Camal Əliyev Britaniyada festivalda çıxış edəcək

Violonçel ifaçısı Camal Əliyev iyulun 25-də Böyük Britaniyada Kinqs-Linn Festivalında çıxış edəcək.



Bu barədə məlumat musiqiçinin və festivalın saytlarında yer alıb. Camal Əliyevi pianoda Mariya Taraseviç müşayiət edəcək.

Konsertdə L.Bethovenin və Y.Bramsın sonataları səsləndiriləcək.

# Ölkəmizdə aparılan islahatlar BMT-də yüksək qiymətləndirilib

Xəbər verildiyi kimi, Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT-də bir sıra görüş və toplantılara qatılıb.

Baş Assambleyada əhali və inkişaf üzrə Qahirə konfransının 25 illiyi münasibətilə keçirilən yüksək səviyyəli iclasda çıxış edən Əli Əhmədov ölkəmizdə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası istiqamətində görülən işlərdən söz açıb, habelə MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabatın təqdim olunduğunu diqqətə çatdırıb.

Əli Əhmədov BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunun dövlət və hökumət rəsmilərinin iştirak etdikləri Nazirlər Seqmentində də çıxış edib. O, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar, o cümlədən inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi barədə ətraflı məlumat verib. Baş nazirin müavini ölkəmizdə DİM-lərə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb.

Səfər zamanı Əli Əhmədov BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper və Misirin Planlaşdırma, Monitorinq və Administrativ İslahatlar naziri xanım Hala Əlsaid ilə görüşüb.

Robert Piper ilə görüşdə Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə əməkdaşlığının uğurla davam etdiyi, bu əməkdaşlıq çərçivəsində bir sıra diqqətəlayiq layihələrin həyata keçirildiyi vurğulanıb.

Baş katibin müşaviri Azərbaycanda aparılan sosial-iqtisadi islahatları və ölkəmizin DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. O, eyni zamanda məcburi köçkünlərin əmək bazarına inteqrasiya edilməsi və məşğulluqlarının artırılması istiqamətində Azərbaycan Hökuməti ilə birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü qeyd edib.



Nazir Hala Əlsaidlə görüş zamanı Baş nazirin müavini Əli Əhmədov ölkəmizin Misirlə müxtəlif istiqamətlərdə əməkdaşlığından bəhs edib. Xanım Hala Əlsaid Azərbaycanda əhaliyə göstərilən dövlət və sosial xidmətlərin səmərəli tətbiqi üçün yaradılan "ASAN" və "DOST" mərkəzlərinin fəaliyyəti ilə tanış olmaq və bu təcrübənin Misirdə tətbiq edilməsi üçün əməkdaşlığın qurulması məqsədilə ölkəmizə səfər etmək niyyətini bildirib.

# Multikulturalizmin Azərbaycan modeli

## Bakı Mədəniyyətlərarası Gənclər Forumu çərçivəsində plenar sessiyalar keçirilib

"Bakı Mədəniyyətlərarası Gənclər Forumu: dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı I Beynəlxalq Gənclər Forumu çərçivəsində plenar sessiyalar keçirilib. İyulun 17-də "Multikulturalizm siyasəti və multikulturalizmin Azərbaycan modeli" mövzusunda keçirilən sessiyada ölkəmizin bu sahədə təcrübəsindən ətraflı bəhs edilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri Abbas İsmayılov bildirib ki, Azərbaycanın multikulturalizm modelinin məqsədi dünyada dinlər, xalqlar və millətlər arasında birgəyaşayışın harmoniyasını yaratmaqdır. Hazırda bu model dünyaya bir nümunə kimi göstərilir və eyni zamanda öyrənilir.

Şöbə müdiri qeyd edib ki, Azərbaycanda dövlət siyasətinə çevrilən multikulturalizmin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Müstəqil Azərbaycan Respublikasında millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüququn normalarına və zəngin tarixi köklərə əsaslanır və bu səbəbdən də dünya ictimaiyyətinin diqqətini cəlb edir.





Abbas İsmayılov dövlətimizin başçısının müvafiq fərmanı ilə yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin həyata keçirdiyi layihələr barədə də ətraflı məlumat verib. Mərkəzin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Sessiyada çıxış edən Mədəniyyət Nazirliyi Aparatının rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə deyib ki, Azərbaycan multikulturalizmin, tolerantlığın, birgəyaşayışın təkcə regionda deyil, beynəlxalq arenada da təşviqi ilə məşğul olur. Dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan ölkəmizdə sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir çox nüfuzlu beynəlxalq tədbirlər keçirilir və bu, artıq ənənə halını alıb.

Vasif Eyvazzadə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı sahəsində reallaşan layihələrdən bəhs edib. Bildirib ki, "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. O, həmçinin multikulturalizmə zidd olan ksenofobiya, diskriminasiya və islamofobiyanın acınacaqlı təzahürlərindən danışıb.

Daha sonra "Bakı Prosesi"nin 10 illik fəaliyyətini əks etdirən videoçarx göstərilib.

"Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası" adlı plenar sessiyanın moderatoru Sara Rahim Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz Təşkilatının (ACWAY) fəaliyyətindən, gənclərlə bağlı reallaşdırdığı layihələrdən danışıb.

Qriffit Universitetinin Dinlərarası və Mədəni Dialoq Mərkəzinin direktoru Brayan Adams çıxışında dini və milli tolerantlıq mühitinin millətlərarası münasibətlərin sağlam şəkildə inkişafına töhfələri barədə söhbət açıb. O, müxtəlif millətlərdən olan gənclərin bir araya gələrək mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı müzakirələr aparmalarının əhəmiyyətli olduğunu bildirib. Eyni zamanda, gənclərin dinlərarası və mədəniyyətlərarası dialoq kimi təşəbbüslərə daha fəal şəkildə cəlb edilməsinin, onların liderlik bacarıqlarının inkişaf etdirilməsinin vacib olduğunu qeyd edib. Brayan Adams bu cür imkanların yaradılmasına görə Azərbaycan Hökumətinə təşəkkürünü bildirib.

Plenar sessiyalar müzakirələrlə davam edib.

Xatırladaq ki, Bakı Mədəniyyətlərarası Gənclər Forumu Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ənənəvi "Yay məktəbi" layihəsi çərçivəsində təşkil edilib. İyulun 15-də başlanan "Yay məktəbi" iyulun 21-dək Bakı şəhəri ilə yanaşı, Oğuz, Şəki və Qəbələ rayonlarında fəaliyyət göstərəcək.

# Cenevrədəki BMT kitabxanalarına nəşrlər hədiyyə edilib

Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi tərəfindən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının nəzdində fəaliyyət göstərən kitabxanaya Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində sənədlər toplusu və görmə məhdudiyyətli insanlar üçün Heydər Əliyev Fondu tərəfindən Brayl əlifbasında hazırlanmış kitablar hədiyyə edilib.





Müxtəlif dillərdə insan hüquqları ilə bağlı kitablar, təlim və tədris ləvazimatları, hesabatlar və digər məlumatların yer aldığı kitabxana üzv dövlətlər, QHT-lər və beynəlxalq təşkilatların nümayəndələrinin istifadəsi üçün nəzərdə tutulur.

Kitabları təqdim edən daimi nümayəndə Vaqif Sadıqov Azərbaycanda insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində dövlət siyasətindən danışıb, ölkəmizin Ali Komissarlıqla əməkdaşlığa önəm verdiyini qeyd edib. O, əlilliyi olan şəxslərin hüquqlarının dövlət tərəfindən müdafiəsinin təmin edilməsi sahəsində görülən işlərdən söz açıb.

Kitabxananın direktoru xanım Alfia Gilbert daimi nümayəndəliyimiz tərəfindən ikinci dəfə belə addımın atılmasına görə minnətdarlığını ifadə edərək, Azərbaycanda Brayl əlifbasında kitab nəşrinin xüsusilə təqdir olunduğunu vurğulayıb.

Eyni zamanda daimi nümayəndəliyimiz tərəfindən növbəti dəfə BMT-nin Cenevrə Bölməsində fəaliyyət göstərən kitabxanaya da kitablar hədiyyə edilib. Daimi nümayəndə Vaqif Sadıqov bildirib ki, Azərbaycan BMT-nin bu ən böyük kitabxanası ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir və artıq üçüncü dəfədir ki, buraya müxtəlif kitablar hədiyyə edir.

Kitablar sırasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondu tərəfindən təqdim olunmuş Azərbaycanın tarixi, mədəniyyəti, mətbəxi və arxitekturasına aid nəşrlər, eləcə də Brayl əlifbasında kitablar yer alıb. Daimi nümayəndə Azərbaycanın zəngin mədəniyyətə malik və qədim tarixi ilə seçilən müasir ölkə olduğunu bildirib. O, dövlət rəhbərliyi tərəfindən ölkəmizin mədəni irsinin qorunub saxlanılmasına göstərilən diqqət barədə danışıb, Heydər Əliyev Fondunun fəaliyyəti haqqında ətraflı məlumat verib. V.Sadıqov həmçinin kitabxana tərəfindən Millətlər Liqasının Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı 36 min səhifəlik arxiv materiallarının rəqəmsal formaya salınaraq 2017-ci ildə Azərbaycan rəsmilərinə təhvil verildiyini xatırlayıb və bu sənədlərin tariximiz üçün xüsusi önəm daşıdığını vurğulayıb.

BMT kitabxanasının direktoru Françesko Pisano daimi nümayəndəlik tərəfindən təqdim edilmiş kitablara görə dərin təşəkkürünü bildirərək, kitabxana fondunun gələcəkdə Azərbaycan barədə daha çox nəşrlə zənginləşəcəyinə ümidvar olduğunu deyib.

# Ədəbi cərəyanlar mövzusunda elmi sessiya

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbi cərəyanlar: poetikası və estetikası" mövzusunda elmi sessiya keçirilib.

Tədbiri AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli açaraq, ədəbi cərəyanların Azərbaycan ədəbiyyatında yerindən danışıb. Akademik bu günə qədər ədəbi cərəyanların az tədqiq olunduğunu bildirib və bu mövzunun əsaslı şəkildə öyrənilməsinin zəruriliyini vurğulayıb.

İsa Həbibbəyli ədəbi cərəyanların öyrənilməsi istiqamətində tədqiqatlar aparan Yaşar Qarayev, Məmməd Cəfər Cəfərov, Hüseyn Həşimli, Qorxmaz Quliyev kimi alimlərin fəaliyyəti haqqında da məlumat verib. Qeyd edib ki, problemin öyrənilməsi üçün institutda ayrıca Ədəbi cərəyanlar sektoru da açılıb.

Müstəqillik dövrünə qədər Azərbaycan ədəbiyyatında erkən realizm, maarifçi realizm, romantizm, tənqidi realizm, sosializm realizmi, modernizm, sentimentalizm kimi cərəyanların yarandığını deyən akademik hazırda dekadentizm, magik realizm, neorealizm, postmodernizm cərəyanlarının müşahidə olunduğunu qeyd edib.

Tədbirdə institutun şöbə müdiri, professor Tahirə Məmmədin "Divan ədəbiyyatı və ədəbi cərəyanlar problemi" mövzusunda məruzəsi dinlənilib.

# Məktəblilər Bakı Kitab Mərkəzində

"Yay məktəbi" layihəsi çərçivəsində Bakı şəhəri 5 nömrəli tam orta məktəbin şagirdləri Bakı Kitab Mərkəzinə ekskursiya ediblər.



Məktəblilər Bakı Kitab Mərkəzinin imkanları ilə tanış olub, oxu zalı, elmi fəaliyyətlə məşğul olanlar üçün tədris guşələrinə baxış keçirib, elektron tablolar vasitəsilə mərkəzdə satılan kitablar haqqında məlumat alıblar.

Ekskursiyanın təşkil olunmasında məqsəd məktəblilər arasında mütaliə mədəniyyəti və oxu vərdişini inkişaf etdirmək, kitaba olan marağı daha da artırmaqdan ibarətdir.

Qeyd edək ki, ödənişsiz qaydada təşkil olunan "Yay məktəbi" Bakı şəhəri üzrə "Məktəblinin dostu" layihəsinin tətbiq olunduğu 32 məktəbi əhatə edir.

Həftənin 5 günü davam edən "Yay məktəbi" çərçivəsində informativ sessiyalar keçirilir, müxtəlif idman yarışları, ekskursiyalar təşkil olunur, şagirdlər maraqlı və əyləncəli vaxt keçirirlər.

# Berlin Humboldt Universitetində Azərbaycan tarixinin tədrisi

## Əməkdaşlıq əlaqələri daha da genişləndiriləcək

Artıq bir neçə ildir ki, Berlin Humboldt Universitetində Azərbaycan tarixi kafedrası fəaliyyət göstərir. Kafedraya tanınmış qafqazşünas alim Eva-Mariya Aux rəhbərlik edir. Professor Eva-Mariya Aux ölkəmizə növbəti səfərə gəlib.

Bakı Dövlət Universitetində professor Eva-Mariya Aux, Humboldt Universitetinin əməkdaşları Rasim Mirzəyev və Kristian Vilhelm ilə görüş keçirilib.

Rektor Elçin Babayev 100 illiyini qeyd etməyə hazırlaşan BDU-nun tarixi, fəaliyyəti barədə məlumat verib. O, Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasında ölkəmizin tarixi, mədəniyyəti, ədəbiyyatı və dilinin təbliği istiqamətində müxtəlif layihələr həyata keçirildiyini yüksək qiymətləndirib və iki universitet arasında əlaqələrin yeni səviyyədə qurulmasında maraqlı olduğunu bildirib.

Professor Eva-Mariya Aux təmsil etdiyi universitetin Almaniyanın və Avropanın ən nüfuzlu elm mərkəzlərindən, təhsil ocaqlarından biri olduğunu vurğulayıb. Bildirib ki, kafedranın xətti ilə tələbələrə Azərbaycan tarixi barədə maraqlı mühazirələr oxunur, seminarlar keçirilir və ustad dərsləri təşkil edilir.

Görüşdə Erasmus proqramında iştirak, bakalavr, magistr və doktorantura səviyyələrində kadr hazırlığı, yeni əməkdaşlıq əlaqələri, birgə tədbir və seminarların keçirilməsi kimi məsələlər də müzakirə olunub.

# Ulu öndərin hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə

İyulun 16-da müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə Ağcabədi Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə rayon Tarix-diyarşünaslıq muzeyində tədbir keçirilib.



Tədbirdə çıxış edən Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Rza Quliyev Azərbaycan xalqının, dünya azərbaycanlılarının taleyində əhəmiyyətli rol oynayan, müasir Azərbaycanın inkişafında əvəzsiz xidmətləri olan dahi şəxsiyyət Heydər Əliyev haqqında geniş söhbət açıb.

Tarix-diyarşünaslıq muzeyinin direktoru Sadiq Əliyev və digər çıxış edənlər ulu öndərin həyat və fəaliyyətindən, Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub saxlanılmasında misilsiz xidmətlərindən, mədəniyyət sahəsində həyata keçirilən islahatlardan bəhs ediblər.

# "Gözəlləşən şəhərimiz"

Sumqayıt şəhər Nizami Gəncəvi adına Kitabxana-klubda "Gözəlləşən şəhərimiz" adlı tədbir keçirilib. Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə təşkil edilən tədbir şəhərin 70 illiyinə həsr olunub.



"Cığır" Mənəvi Dəyərlərin İnkişafına Dəstək İctimai Birliyi üzvlərinin iştirakı ilə gerçəkləşən tədbirdə kitabxanaçı Bətura Lazımova Sumqayıt şəhərinin yaranması, dünəni və bu günü haqqında geniş məlumat verib.

Tədbirdə "Sumqayıt uşaqların gözü ilə" mövzusunda müzakirələr aparılıb. Oxucuların ifasında Sumqayıt haqqında şeirlər və əfsanələr dinlənilib.

Daha sonra tədbir iştirakçıları kitabxanada fəaliyyət göstərən "nağıl otağı", xidmət şöbəsi, kitab sərgiləri, rəsm dərnəyi üzvlərinin əl işləri ilə tanış olublar.

# İrəvan teatrı mövsümə Sabirabadda yekun vurub

Mədəniyyət Nazirliyinin təşəbbüsü, Sabirabad Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi şair, yazıçı Sevinc Elsevərin Xocalı soyqırımına həsr olunmuş "Ürəyində arzu tut" tamaşası ilə Sabirabad şəhərində qastrol səfərində olub.



Sabirabad şəhər Mədəniyyət Mərkəzinin səhnəsində nümayiş olunan tamaşada Xocalı faciəsi zamanı əsir düşmüş gənc qızın acı taleyi, qaçqınlıq şəraitində yaşayan insanların saf hissləri, psixoloji-mənəvi durumu, eyni zamanda xalqımızın müharibədə keçdiyi əzab-əziyyətli, məşəqqətli yol, müharibənin acı nəticələri əks olunub.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Sərvər Əliyev, rejissor köməkçisi Bəhruz Hikmətoğlu, quruluşçu rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatçısı Çingiz Xəlilovdur.

Rollarda Əməkdar artist Xatirə Süleymanova, aktyorlar Pərvin Dadaşova, Bəhruz Hikmətoğlu, Məhərrəm Musayev, Ruhiyyə Eyvazova, Niyaməddin Səfərəliyev, Sevinc Hüseynova və Arzuman Tanrıverdi çıxış ediblər.

Xatırladaq ki, teatrın kollektivi "Ürəyində arzu tut" tamaşasının Sabirabad rayonundakı nümayişi ilə həm də 137-ci mövsümü başa vurub.

# Almaniya jurnalında Şəki Xan sarayı haqqında məqalə dərc olunub

Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzinin UNESCO-nun Dünya irs siyahısına daxil edilməsi ölkəmizdə və dünyada geniş rezonans doğurub. Bir sıra ölkələrin mətbuat orqanlarında bu əlamətdar hadisə ilə bağlı yazılar dərc olunur.




Almaniyanın "Mortimer Reisemagazin" jurnalında da Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzinin Dünya irs siyahısına salınmasına həsr olunan məqalə dərc edilib.

Məqalədə Qafqaz dağlarının ətəyində yerləşən Şəki şəhərinin mərkəzindən keçən Qurcanaçayın onu iki hissəyə ayırdığı, qədim İpək Yolunun üzərində yerləşən şəhərdə 1762-ci ildə inşa edilmiş möhtəşəm Şəki Xan sarayının və yay sarayının mövcud olduğu vurğulanır. Qeyd olunur ki, şəhərin tarixi hissəsində yerləşən Xan sarayı hələ 2001-ci ildə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan maddi-mədəni irsin ilkin siyahısına daxil edilib. UNESCO-nun Dünya İrs Komitəsinin bu ilin 30 iyun - 10 iyul tarixlərində Bakıda keçirilən 43-cü sessiyasında isə Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzi təşkilatın Dünya irs siyahısına salınıb.

Məqalədə qeyd olunur ki, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Sengsşmidt bu əlamətdar hadisənin Azərbaycanın özünəməxsus tarixi, mədəniyyəti və zəngin irsinin dünyada tanıdılmasına töhfə verdiyini, Şəkinin küçələrinin və arxitekturasının müasir Bakı ilə kontrast təşkil etdiyini, Xan sarayının Azərbaycanın ən qiymətli tarixi tikililərindən biri olduğunu və buradakı sənətkarların əl işlərinin bütün dünyadan gələn turistləri heyran qoyduğunu bildirib.

Həmçinin məqalədə Şəki hakimi Hüseyn xan tərəfindən inşa edilmiş sarayın tikintisində Azərbaycanın qədim və məşhur şəbəkə sənətindən istifadə olunduğu, onun nümunələrinin sarayın pəncərələrində öz əksini tapdığı, sarayın inşasında 5000 ağac və şüşə materialdan istifadə edildiyi, rəngli şüşələrdən hazırlanmış şəbəkələrin mismar və yapışdırıcı olmadan quruldluğu vurğulanır.

Məqalədə Şəki şəhərinin Şərqlə Qərbi birləşdirən qədim ticarət yolları şəbəkəsi üzərində yerləşən və uzun müddət əhəmiyyətini qoruyub saxlayan məkan olduğu və buradakı çoxsaylı karvansaraların buna dəlalət etdiyi bildirilir. Azərbaycanın şimal-qərbində yerləşən Şəkinin XIX əsrdə ipək istehsalı üzrə beynəlxalq mərkəz olduğu diqqətə çatdırılır.

Sonda Şəki ilə yanaşı Azərbaycanın digər tarixi yerləri, o cümlədən Qobustan Milli Tarix-Bədii, İçərişəhər Dövlət Tarix-Memarlıq qoruqları və Şirvanşahlar sarayı, Qız qalası haqqında da məlumat verilir, Azərbaycan xalça sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edildiyi vurğulanır. Məqalə Şəkinin tarixi mərkəzi və Xan sarayı haqqında foto və videomateriallarla müşayiət olunur.

# "Azərbaycan xalçalarını çox sevirəm"

Xalça sərgisi haqqında eşidəndə mütləq ona baxmağı qərara aldım. Burada gördüyüm xalçalar çox maraqlıdır. Onların toxunma qaydası, naxışları, rəng seçimi heyrətamizdir. Sərgidə xalça toxunması üçün millimetrlik kağızdan istifadə edilməsi diqqətimi daha çox cəlb etdi.

Bu fikirləri Heydər Əliyev Fondu tərəfindən Kann şəhərində təşkil olunmuş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisinin açılışında Mişel Alber-Poli söyləyib. Bildirib ki, xalça eskizlərinin, xüsusilə də naxışların rəngli nöqtələrlə millimetrlik kağızda göstərilməsi çox maraqlıdır. Bu, naxışlarda dəqiqliyin, xalçalara böyük əmək sərf olunmasının göstəricisidir. Rənglərin bir-birinə məharətlə uyğunlaşdırılması çox yüksək istedad tələb edir.

Mişel Alber-Poli deyib: "Azərbaycan mədəniyyəti haqqında kitab hədiyyələrinə görə təşkilatçılara təşəkkür edirəm. Bu kitablar mədəniyyəti daha yaxından tanımağa imkan yaradır. Azərbaycanın Qarabağ, Naxçıvan, Bakı, Quba kimi müxtəlif xalça məktəbləri haqqında kitab çox maraqlıdır. Mən Lion klubunun üzvüyəm və klubumuzun üzvləri Azərbaycana səfərə hazırlaşırlar. Səkkizgünlük səfər nəzərdə tuturuq və ümid edirik ki, bu müddət ərzində ölkənizin tarixi və mədəniyyət xəzinəsi ilə tanış ola biləcəyik".



# Aprel şəhidinin xatirəsi anılıb

İyulun 17-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində xüsusi təyinatlı tabor komandiri, Aprel döyüşlərinin şəhidi Mühüd Orucovun anım mərasimi keçirilib.



Mərasimdə filologiya üzrə fəlsəfə doktoru, şair, jurnalist Fəridə Ləmanın şəhidin xatirəsinə həsr olunmuş kitabı təqdim olunub.

Tədbirdə çıxış edənlər Aprel döyüşlərinin dövlətimizin, ordumuzun gücünü göstərən şanlı tarixi qələbə olduğunu söyləyib, bu qələbəni Azərbaycan Ordusunun düşmən üzərində qazanılacaq böyük zəfərinin başlanğıcı kimi dəyərləndiriblər.

Bildirilib ki, Mühüd Orucov göstərdiyi qəhrəmanlığa görə Prezident İlham Əliyevin 19 aprel 2016-cı il tarixli sərəncamı ilə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib. Qeyd edilib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Mühüd Orucovun da əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Sonda şəhidlərə həsr olunmuş şeirlər səsləndirilib, mahnılar oxunub.

# Tbilisidə fotoqraf soydaşımızın sərgisi

Tbilisidə azərbaycanlı fotoqraf Nurlan Tahirlinin fərdi sərgisi açılıb. Gürcüstan Milli Parlament Kitabxanasında açılan sərgi "Travel Tunnel" ("Səyahət tuneli") adlanır.



Azərbaycan Fotoqraflar Birliyi (AFB) və Gürcüstan Fotoqraflar Assosiasiyasının (APG) birgə təşkil etdiyi sərgidə fotoqrafın 30-dan çox səyahət və şəhər mənzərələri mövzusunda şəkilləri nümayiş olunub.

APG-nin sədri Kaxa Pxakadze tədbiri açaraq gənc fotoqrafın yaradıcılığını təhlil edib, onun fotoqrafiya sahəsində daha böyük uğurlar qazanacağına əmin olduğunu söyləyib.

Gürcüstan Fotoqraflar Assosiasiyasının 2017-ci ildən üzvü olan N.Tahirlinin bu sərgisi sayca üçüncüdür. Daha öncə onun Azərbaycanda (2015) və Türkiyədə (2016) fərqli mövzularda əsərləri nümayiş olunub.

N.Tahirli təhsilinin bakalavr pilləsini Azərbaycan Dövlət İqtisad Universitetində, marketinq üzrə magistratura təhsilini Türkiyənin Sakarya Dövlət Universitetində alıb. Bir sıra beynəlxalq fotomüsabiqələrin iştirakçısı və laureatıdır, 2019-cu ildə Avropa Fotoqraflar Federasiyası (FEP) tərəfindən "European Photographer" (Avropa fotoqrafı) təsnifatına layiq görülüb.



# Yeni görüşlərədək

## Bakı Uşaq Teatrı da mövsümə yekun vurdu

Növbəti mövsümə qədər sevimli tamaşaçıları ilə səhnə sovqatlı sağollaşan sənət ocaqlarından biri də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Bakı Uşaq Teatrı oldu. Mövsüm ərzində bir-birindən maraqlı, fərqli janr və mövzulu səhnə nümunələri ilə tamaşaçılarını məmnun etməyə, onların teatr zövqünü formalaşdırmağa çalışan yaradıcı heyət mövsümün son gününü də yaddaqalan etmək üçün çalışdı.

İyulun 17-də Bakı Uşaq Teatrı Teatr Xadimləri İttifaqının tamaşa salonunda mövsümə yekun vurdu. Mərasimdə nazirliyin əməkdaşları, mədəniyyət və incəsənət xadimləri, KİV təmsilçiləri, ən əsası isə kollektivin sadiq izləyiciləri iştirak edirdi.

Salonu dolduran müxtəlif yaş qrupundan olan tamaşaçılar qarşısına çıxan teatrın direktoru, Əməkdar artist İntiqam Soltan öncə dolğun keçən mövsümə qısa nəzər saldı. Müxtəlif idarə və müəssisələr, nazirlik və təşkilatlarla reallaşdırdıqları birgə uğurlu layihələrdən, maarifləndirici aksiyalardan, qastrol səfərlərindən bəhs etdi. Direktor "Bütün Azərbaycanı səhnə bilirik" ifadəsini qüvvətləndirmək üçün fərqli rayonlarda tamaşaçılar qarşısında etdikləri çıxışlardan, onların teatra sevgi və marağından da danışdı.

Tamaşanın maarifləndirici missiyasına xüsusi önəm verdiklərini deyən Əməkdar artist uşaq, yeniyetmə və gəncliyin sağlamlığı və əmin addımlarla gələcəyə irəliləməsi üçün teatr olaraq təbliğat maşını funksiyasını yerinə yetirməyə çalışdıqlarını dilə gətirdi.



Yeni mövsüm vədlərinin ardınca isə il ərzində yaradıcı fəaliyyəti ilə seçilən, eləcə də teatra dəstək olan, onun təbliğatı işini quran bir neçə şəxsə təsis etdikləri "Gümüş körpə" mükafatı verildi.

Mükafatçılar arasında Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov da var idi. O, təltifə görə teatrın kollektivinə minnətdarlığını bildirdi, yeni yaradıcılıq uğurları arzuladı.

Teatrın əməkdaşları arasında keçirilən sorğu əsasında müəyyənləşən digər mükafatçılar isə teatrşünas və media mənsubları idi.

Daha sonra balaca tamaşaçıların rəy sorğusuna görə, teatrın əməkdaşları Şahbuz Quliyev, Zəminə Allahverdiyeva, Leyla Hüseynova, Nərminə Məhərrəmova, Turəxanım Qasımlı, Niyaz Qasımov, Mehman Piriyev, Ədalət Ağaverdizadə, Günay Pirizadə, Emin Balayev və digərləri mükafatlandırıldı.

Sonda tamaşaçılar müasir dövrün qlobal problemlərindən olan insan alverinin fəsadlarına həsr edilən "Günahsız günahkarlar" tamaşasına baxdılar.

Böyüklər üçün nəzərdə tutulan tamaşanın səhnələşdirəni Arzu Soltan, quruluşçu rejissoru İntiqam Soltan, rəssamı Sevda Məmmədova, bəstəkarı Mahir İbrahim, rəqslərin quruluşçusu Könül Şahbazovadır.

Tamaşa gənclər arasında çox yayılmış "mafiya" oyunu üzərində qurulub. Gənclər bu oyun sayəsində özləri də bilmədən insan alveri ilə məşğul olan mafiyanın qurbanına çevrilirlər. Kimisi yüksək gəlirli iş, kimisi ailə qurmaq adı ilə aldadılıb xaricə aparılaraq fiziki və cinsi istismara məruz qalır, kimisi orqan transplantasiyasının qurbanı olur. Bəs bütün bu oyunları quran kimdir? Mafiyanı kim idarə edir? Mafiyanı kim ifşa edə bilər? Gənclər insan alveri haqqında nələri bilməlidirlər?

"Günahsız günahkarlar" tamaşası bu suallara cavab üzərində qurulub. Özlüyündə bir sıra ağır məqamlara aydınlıq gətirən dramatik sonluqlu tamaşa alqışlarla qarşılandı.

**HƏMİDƏ**

# Altıncı konfrans, üçüncü sərgi

**Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA), sözün həqiqi mənasında, bir intibah yaşanır. Gələn il yaradılmasının 75 illiyini qeyd edəcək bu elm məbədində aktual problemlər araşdırılır, konfranslar, dəyirmi masalar, sərgilər keçirilir.**

İyulun 13-də AMEA-nın Yüksək Texnologiyalar Parkında daha bir tədbir keçirildi. Bu, sayca artıq 6-cı olan "Fizika və lirika" elmi konfransı idi.

Məlum olduğu kimi, elm ənənəvi olaraq iki böyük şaxəyə bölünür. Bunlar dəqiq və humanitar elmlərdir. Elmlərin multidissiplinar xarakter daşıdığı müasir dövrdə dəqiq və humanitar elmlərin əlaqələri daha da intensivləşmişdir. Qeyd edək ki, dəqiq elmlər sahəsində çalışanlar arasında humanitar elmlərə, həmçinin şeirə, sənətə, musiqiyə maraq göstərənlər çoxdur. Eləcə də əksinə - ədiblər, filoloqlar, filosoflar içində dəqiq elmlərlə maraqlananlar az deyil...

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "Fizika və lirika" elmi konfransı bir çox diqqətçəkən çıxışları, səslənən maraqlı fikirləri ilə yadda qaldı. Diqqəti cəlb edən əsas məsələlərdən biri konfrans çərçivəsində AMEA əməkdaşlarının çəkdiyi rəsm əsərlərindən ibarət sərginin keçirilməsi idi. Konfrans iştirakçıları əvvəlcə böyük maraqla sərgilənən əsərlərlə tanış oldular. Onların arasında Xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar, Əməkdar elm xadimi, professor Ağacan Abıyev, professor Hamlet İsaxanlı və başqaları var idi.



Akademik İsa Həbibbəyli rəsm sərgilərinin əhəmiyyətini vurğulayaraq onların AMEA-da mütəmadi olaraq keçirildiyini qeyd etdi.

Akademiyanın Memarlıq və İncəsənət İnstitutunun direktoru, müxbir üzv, professor Ərtegin Salamzadə sərgi haqqında ətraflı məlumat verdi. Bildirildi ki, sərgidə ümumilikdə 12 əməkdaşın 26 əsəri nümayiş olunur. Əsərlər yağlı boya, sulu boya, qrafika və s. texnikalarda işlənmişdir. Əsərlərin bir qismi dekorativ-tətbiqi sənət xarakterli idi. Sərgidə Memarlıq və İncəsənət İnstitutunun əməkdaşları ilə yanaşı AMEA-nın digər qurumlarının – M.Füzuli adına Əlyazmalar İnstitutunun, İnformasiya Texnologiyaları İnstitutunun və Radiasiya Problemləri İnstitutunun təmsilçiləri də öz əsərlərini nümayiş etdirirdilər. Maraqlıdır ki, sərgi iştirakçılarının tərkibi konfransın ruhunu, onun ana xəttini özündə əks etdirirdi. Burada AMEA-nın həm humanitar, həm də dəqiq elm qurumlarının bədii istedada malik nümayəndələri bir araya gəlmişdilər. Onların əsərləri ilə bərabər sərgiyə qonaq qismində qatılan professor Ağacan Abıyevin çəkdiyi mənzərə əsərləri də nümayiş etdirildi. Qonşu stendlərdə həmçinin Ədəbiyyat İnstitutunun əməkdaşlarının kitabları da sərgilənirdi.

Artıq üçüncü dəfədir ki, "Fizika və lirika" konfransları rəsm sərgiləri ilə müşayiət olunur. Dəqiq və humanitar elmlərin birliyinin maraqlı təzahürü olan sərgi obrazlı surətdə bu iki sahənin vəhdətini ifadə edir.

Sərgilənən əsərlərin böyük əksəriyyəti peşəkar təsir bağışlayırdı. Qeyd demək lazımdır ki, təsviri sənətlə sıx təmasda olan AMEA Memarlıq və İncəsənət İnstitutunun əməkdaşlarının xeyli hissəsi bədii təhsilə malik mütəxəssislərdir. Elm ilə yanaşı, bədii yaradıcılıq da onların fəaliyyətində mühüm yer tutur. Konfrans iştirakçıları sərgilənən əsərlərin qarşısında xeyli dayandılar. Hiss olunurdu ki, bu əsərlər insanlarda böyük təəssürat oyadır, onlara nikbin əhval-ruhiyyə, xoş ovqat bəxş edir.

Böyük təəssübkeş ziyalı və alim Xudu Məmmədovun yetirməsi olan fizikaşünas İmadəddin Əmiraslan həm də bir rəssam kimi tanınır. O, spesifik bir sahədə - beşlik simmetriyalı aperiodik ornament üslubunda kompozisiyalar işləyir. Bu üslubun özəlliyi ondadır ki, burada fon olmur, kompozisiya elementləri mərkəzdə yerləşən çıxış nöqtəsindən ətrafa yayılaraq kompozisiyanı başdan-başa bürüyür, əhatə edir. İncəsənətin çox nadir, rəmzi mahiyyətə malik bir forması olan bu üslubda sanki fizika və lirika təcəssüm olunaraq birbirinə qovuşur.

Əməkdar rəssam Fəxrəddin Əli uzun illərdir ki, rəngli qrafika sahəsində rəsmlər yaradır. M.Füzuli adına Əlyazmalar İnstitutunda çalışan sənətkar milli folklor, ədəbiyyat, lirika mövzularında maraqlı rəsmlər, silsilə illüstrasiyalar işləyir. Dədə Qorqud, muğam sənəti, "Xəmsə", Füzuli poeziyası mövzularında işlədiyi rəsmlər nəfis şəkildə çap olunan kitabları bəzəyir. Sərgidə qocaman rəssamın və elm xadiminin Nizaminin "Xəmsə"sinə işlənmiş illüstrasiyaları, həmçinin ölməz şairin portreti nümayiş etdirildi.

Memarlıq və İncəsənət İnstitutunun əməkdaşı Oksana Məmmədovanın işlədiyi üslub zəngin koloriti, maraqlı kompozisiya həlli ilə diqqət çəkir. Gənc rəssam kətan üzərində akrillə lirik-romantik tərzdə işlədiyi rəsmləri qabarıq ağ cizgilər, nöqtələrlə bəzəyərək onlara xüsusi gözəllik, təkrarolunmaz bədii ahəng verir. Onun sərgidə nümayiş olunan "Lənkəran incisi", "Yuxu", "Harmoniya" kimi tabloları məhz bu üslubda işlənmişdir.

Leyla Məmmədkərimova, Aysel Talıbova, Ellada Abbasova, Elşad Əliyev, Aysel Abdullayeva (Memarlıq və İncəsənət İnstitutu), Səbinə Məmmədzadə (İnformasiya Texnologiyaları İnstitutu), Baba Əliyev (Radiasiya Problemləri İnstitutu) və başqalarının mənzərə, natürmort janrlarında, miniatür üslubunda işlədiyi əsərlər də yüksək bədii effektə malikdir.

Fərəhlidir ki, ali məramı elm olan AMEA-da həqiqi bədii istedadı olan insanlar da fəaliyyət göstərir, Azərbaycan incəsənətini şərəflə təmsil edirlər. Onların yaratdığı əsərlər müasir Azərbaycan təsviri sənətinin formalaşmasında heç də az rol oynamır.

**Xəzər ZEYNALOV**
**AMEA Memarlıq və İncəsənət İnstitutunun direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# "Çox faciələrin kökündə lənət durur"

## Xristo Stoyçev: "Səhnə əsəri bunun səbəbini tamaşaçıdan soruşmalıdır"



*əvvəli səh. 1-də*

Bəs qonağımız kimdir? Xristo Stoyçev Bolqarıstanda çox tanınmış sənətkar ailəsində dünyaya gəlib: atası Stoyçe Stoyçev aktyor-rejissor, anası Blaqorodna Stoyçeva aktrisa olub. Bu gün haqq dünyasında olan valideynlərinin sayəsində uşaqlığı teatrda keçib, ona ürəkdən bağlanıb. Özü deyir ki, teatrda səhnə arxasında qalan bütün işlərdə çalışıb, onun üçün teatrla bağlı qaranlıq sahə yoxdur.

Təhsilinə gəlincə, Sofiya Universitetini bitirib; həm ali rejissor, həm də teatrşünas təhsili alıb. Teatrda çalışmaq, tamaşa qurmaq həvəsi (özü deməsə də, rejissorluq istedadı) nəzəri çalışmaları üstələdiyi üçün rejissorluğu seçib. Azərbaycanlılar Türkiyə türkcəsini bildiyi qədər qonağımız da rus dilinə bələddir. Bu səbəbdən də birbaşa ünsiyyətimizə manea olmadı. Azərbaycana böyük məhəbbət bəsləyən Xristo yeri düşən kimi "çox sağ ol", "inşallah" ifadələrini həvəslə işlədir.

**- Xoş gəlmisiniz, Xristo!**

- Çox sağ olun.

**- Bilirəm ki, sizin Azərbaycan teatrı ilə əvvəllər də işbirliyiniz olub. Amma Yuğ teatrında ilk dəfə tamaşa qurursunuz. Əsər seçiminiz mənə çox maraqlı gəldi. Adətən dəvətli rejissor ya Azərbaycan teatrında indiyədək səhnə üzü görməmiş əsərə müraciət edir, ya da təmsil etdiyi ölkənin milli dramaturgiyasına. Siz isə Şekspirin "III Riçard"ını seçdiniz. Sizin hər iki heyətlə məşqlərinizə tamaşa etdim və gördüm ki, bu, heç də klassik "III Riçard" deyil. Üstəlik, məşhur pyesin əsasında hazırladığınız "Lənət" tamaşası sanki hansısa silsilənin bir hissəsidir.**

- Yeni bu, belə hiss olunur?

**- Hər halda tamaşaçı lənətlənmiş digər qəhrəmanları da sizin yozumunuzla tanımaq istəyəcək...**

- Bunu düz tapmısınız. Çoxdan istəyirdim ki, Şekspirin üç faciəsini – "III Riçard", "Hamlet" və "Maqbet"i trilogiya kimi hazırlayım. İnşallah, bu istəyimi Yuğ teatrında gerçəkləşdirə biləcəyəm.

**- Çox gözəl olardı... Amma əsər seçiminizin səbəbini demədiniz...**

- İllərdir ki, Azərbaycan böyük ədalətsizlik, amansızlıqla üzüzədir. Mənim ölkəmin əhalisi bu barədə az bilir. Qarabağ məsələsi, Xocalı soyqırımı barədə düşünəndə ilk növbədə bunlar adama gərgin və mürəkkəb sosial problem kimi görünür. Eləcə də digər ölkələrdəki, məsələn, Ukraynada, Suriyada baş verənləri götürək... Əslində bütün bunların kökündə lənət durur. Lənətə gələn də insandır, lənətə bais olan da...

**- Niyə?**

- Bilmirəm. Rejissorun, tamaşanın məqsədi sual verməkdir, insanların görə bilmədiyini, görmək istəmədiyini tamaşaçılara göstərməmk, onları cavab axtarmağa vadar etməkdir! Şekspir də hələ o vaxt bu sualları "III Riçard"da, o biri dramlarında qoyub.



"İllərdir ki, mən özümü yarıazərbaycanlı sayıram. Buna görə də Azərbaycanda çalışmaq mənim üçün həm zövq, həm də məsuliyyət məsələsidir"

**- Maraqlı yanaşmadır.**

- Mənim üçün bu məsələ çox vacibdir: mən insanlardan soruşmaq istəyirəm ki, axı, bunlar niyə baş verir? Nə üçün belə oldu? Mənim üçün komediya, yaxud faciəni səhnələşdirməyimin heç fərqi yoxdur. Tamaşaçıya öz quruluşumla məni düşündürən sualı verirəm. Məncə, yaxşı rejissor sual qoymağı bacarmalıdır.

**- Tamaşaya baxıb cavab axtarırıq...**

- Mən nəzərdə tutduğum trilogiya ilə bu sualın cavabını tapmaq istəyirəm: niyə insanlar lənətdən bu qədər asılıdır? Əgər trilogiya üçün niyə Azərbaycan teatrını seçdiyimlə maraqlansanız, bu suala cavabım var...

**- Yuğ teatrının aktyorlarının hünərinə kimsə şübhə etmir. Bununla belə, ilk dəfə bu kollektivlə qarşılaşan rejissor kimi fikriniz maraqlıdır...**

- Həqiqətən də, bu teatrda savadlı, ziyalı aktyorlar var. Bilirsiniz, əcnəbi rejissorla işləmək sənə hər mətləbi öz dilində başa salan, səninlə eyni mədəni mühitdə yetişmiş rejissorla işləməkdən çətindir. Digər tərəfdən, assosiativ teatr onların alışdığı ifa tərzindən bir qədər fərqlidir. Əslində, bu fərqlilik aktyor üçün maraqlıdır. Mən onları çox sevirəm və birgə çalışmaqdan zövq alıram.

**- Rejissor ki öz aktyorlarını sevdi, deməli, tamaşa alınacaq.**

- İnşallah! Amma hər rejissorun da öz dəst-xətti var, onunla uyğunlaşmaq bir qədər çətindir.

**- Siz Sofiyada hansı teatrda çalışırsınız?**

- "Göz yaşı və gülüş" teatrında.

**- Nə maraqlı adı var? O dəqiqə məşhur teatr maskaları gözümün qarşısına gəldi...**

- Elə özü də maraqlıdır. Əvvəllər dövlətin balansında olub, indisə kommersiya müəssisəsidir. Bilirsiniz, dünyada dotasiyasız, öz hesabına yaşayan teatr azdır və "Göz yaşı və gülüş" də həmin tək-tük teatrlardan biridir. Dünyanın ən böyük mimlərindən biri, aktyor, rejissor Velyo Qoranov bizim teatrda çalışır. Teatrın iki səhnəsi var: böyük səhnə və kiçik səhnə. Bu da bizə texniki cəhətdən müxtəlif quruluşları gerçəkləşdirmək imkanı verir. Dəvət etdiyimiz rejissorlar həvəslə bizim teatrda çalışırlar.

**- Xristo, təəssüf ki, biz azərbaycanlılar, əsasən də yaşlı və orta nəsil üçün bolqar mədəniyyəti televiziya ilə izlədiyimiz "Qızıl Orfey" mahnı müsabiqəsindən, bir neçə bolqar estrada müğənnisini tanımaq həddindən o tərəfə keçməyib...**

- Elə Bolqarıstanda da belədir. Azərbaycan musiqisi, muğam barədə bir qədər bildikləri var. Elə buna görə də düşünürəm ki, Yuğ teatrının direktoru, mənim köhnə dostum İslam Həsənovla bizim teatrlar arasında qurduğumuz bu əlaqə həm də ölkələrimizin mədəni əməkdaşlığına təkan verəcək. Mən bu dəvətə görə Azərbaycanın Bolqarıstandakı səfirliyinə, Mədəniyyət Nazirliyinə, şəxsən nazir Əbülfəs Qarayevə minnətdaram.

İllər öncə, Lənkəran teatrında tamaşa qurmuşdum. Mən Lənkəranı və Lənkəran teatrını çox sevirəm. İslam Həsənovla dostluğumuz da o zamandan başlayıb. İndi də Bakıda, Yuğ teatrındayam. Deməli, artıq teatr münasibətlərimizdə irəliləyiş var...

**- Bildiyim qədər, bizim Akademik Milli Dram Teatrı da Bolqarıstanın İvan Vazov adına Milli Teatrı ilə yaradıcılıq ünsiyyətinə başlayıb. Üstəlik, inişil bizim akademik teatrın "İuda" monotamaşası Varna festivalında mükafat qazanmışdı. Azərbaycanda da beynəlxalq teatr festivalları var: biri Şəkidə, biri də sizin çox sevdiyiniz Lənkəranda keçirilir. Lənkəranda hələlik birinci festival təzəlikcə baş tutub, amma Şəki festivalı artıq üç dəfə keçirilib. Biz sizin teatrı da həmin festivallarda maraqla seyr edərdik...**

- Əlbəttə, festivala gəlmək də, teatrda da tamaşa qoymaq olar. Amma bizim arzularımız böyükdür.

**- Məsələn...**

- Bakıda Axundov bağının həndəvərində yaşayıram. Hər gün mərkəzi küçələrdən keçib teatra gələndə yolumun üstündə Polşa Mədəniyyət Mərkəzini görürəm. Axı, niyə Bakıda Bolqarıstan, Sofiyada da Azərbaycan mədəniyyət mərkəzi olmasın? Mən də, həyat yoldaşım Natella xanım da çox istəyirik ki, Sofiyada belə bir mədəni mərkəz açılsın...

**- Bilirsiniz, Xristo, Azərbaycan və Polşa xalqları arasında mədəni əlaqələr dünən yaranmayıb. Təxminən yüz əlli ildir ki, polyaklar Azərbaycanda məskunlaşıblar, Azərbaycan mədəniyyətinə töhfə veriblər... Əlbəttə, çox yaxşı münasibətlərimizin olduğu Bolqarıstan ilə də mədəni əlaqələrimiz inkişaf edir. Yəqin gələcəkdə belə mərkəzlər Bakıda və Sofiyada da açılar...**

- Mən sübut edərəm ki, Azərbaycan-Bolqarıstan münasibətlərinin tarixi lap qədimdir! Bolqar xalqının yaranması, formalaşması Azərbaycan xalqı ilə bağlıdır. Bolqar xalqı Kubrat xanın (bulqar tayfasının hökmdarı) törəmələrindən formalaşıb. Bizim xalqlarımızın adət-ənənəsində, mətbəxində, hətta dekorativtətbiqi sənətdə istifadə etdiyi naxışlarda yaxınlıq çoxdur. Torpaqlarımızı min kilometrlər ayırırsa, bu oxşarlıq haradandır? Deməli, bu doğmalıq kökdən gəlir...

**- Səhv eləmirəmsə, bolqarlar da bizim kimi xalça toxuyurlar, təxminən eyni xalça çeşnilərindən istifadə edirlər...**

- Görürsünüz?! Belə oxşarlıqlar çoxdur.

**- Xristo, sizdən bir məsələni də soruşum: Azərbaycana bu qədər məhəbbətiniz sizə bizim qızımızı sevdirdi, yoxsa azərbaycanlı xanımı sevəndən sonra vətənimizə məhəbbətiniz bu qədər artdı?**

- Deyəsən, hər ikisi eyni vaxtda baş verib. Həyat yoldaşım savadlı, hərtərəfli ziyalı xanımdır, beş dil bilir, geniş dünyagörüşü var. İllərdir ki, mən özümü yarıazərbaycanlı sayıram. Digər tərəfdən, heç istəmərəm ki, mənim üçün desinlər ki, Bolqarıstandan bir rejissor gəlmişdi, iyirmi gün ərzində başdansovdu bir tamaşa hazırladı, qonorarını alıb getdi. Buna görə Azərbaycanda çalışmaq mənim üçün həm zövq, həm də məsuliyyət məsələsidir.

**Gülcahan MİRMƏMMƏD**

# Yuğ teatrında mövsümün yekunları müzakirə olunub

**Yuğ Dövlət Teatrı kollektivinin iyulun 16-da keçirilən toplantısında başa çatan mövsümünü nailiyyətləri ilə yanaşı, qarşıdakı mövsümə hazırlıqlardan da bəhs olunub.**

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi İslam Həsənov və baş rejissor, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə yekunlaşan teatr mövsümünün ümumilikdə Azərbaycan teatrı üçün, o cümlədən Yuğ teatrı üçün əlamətdar olduğunu, həyata keçirilən islahatların teatr sənətinin inkişafına müsbət təsirini qeyd ediblər.

Mövsüm ərzində iki yeni tamaşanın – O.Pamukun "Mənim adım qırmızı" romanının motivləri əsasında "Mən ağacam" (rejissor Əbdülqəni Əliyev) və H.İbsenin "Vahimə" əsəri əsasında "Vəsvəsə" (rejissor Gümrah Ömər) tamaşalarının hazırlandığı, kollektivin Kazan şəhərində keçirilən "Novruz" türkdilli xalqların teatr festivalında uğurla iştirak edərək ("Mümmalı bir qətlin üç versiyası", quruluşçu rejissor Mehriban Ələkbərzadə) diplomla təltif edildiyi diqqətə çatdırılıb. Bu mövsümdə teatrın aktyoru Qasım Nağı Əməkdar artist fəxri adına layiq görülüb.



Bildirilib ki, Mədəniyyət Nazirliyinin dəstəyi ilə ilin sonlarında Yuğ teatrının 30, teatrın qurucusu Vaqif İbrahimoğlunun 70 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçiriləcək. Növbəti mövsümdə İlqar Fəhminin əsəri əsasında İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş tamaşa-kompozisiyanın və İvan Vırıpayevin pyesi əsasında "İllüziyalar" adlı yeni səhnə əsərinin hazırlanması planlaşdırılır.

Toplantıda mövsüm ərzində fərqlənən yaradıcı heyət üzvlərinə diplom və hədiyyələr təqdim edilib. Əməkdar artistlər Sonaxanım Mikayılova, Gülzar Qurbanova, Fərhad İsrafilov, rejissorlar Gümrah Ömər və Günay Səttarova mükafatlandırılıb.

№52 (1637)
19 iyul 2019
www.medeniyyet.az

Adil Gəray Məmmədbəyli - 100

# Tara həsr olunmuş ömür

XX əsrin birinci yarısında Üzeyir Hacıbəylinin istedadlı gənclərə himayədarlığı və qayğısı sayəsində ifaçılığa və yaradıcılığa qədəm qoyan musiqiçilərdən biri də Adil Gəray Məmmədbəyli olmuşdur.



Adil Gəray sənətdə ilk addımlarını tar aləti ilə atmış, bütün yaradıcılığını və fəaliyyətini bu ecazkar milli alətə bağlamış, ifaçı, müəllim və bəstəkar kimi səmərəli və dəyərli fəaliyyət göstərmişdir. Ötən əsrin 30-cu illərində, Dövlət Musiqi Texnikumunda ixtisas fənni üzrə Ü.Hacıbəyli və S.Rüstəmovdan, muğam sənəti üzrə Ə.Bakıxanovdan dərs almışdır. Oxuduğu illərdə H.Sarabskinin xanəndə sinfində müşayiətçi tarzən işləmiş, 1940-cı ildən isə texnikumda dərs demişdir. Konservatoriya təhsilində Ü.Hacıbəylinin sinfində tar ixtisası ilə yanaşı, bəstəkarlıq dərsləri almış və bu sahədə ilk addımlarını atmışdır. Üzeyir bəyin tövsiyəsi və dəstəyi ilə 1938-ci ildən Azərbaycan Radiosunun nəzdindəki ilk notlu xalq çalğı alətləri orkestrində işləmişdir. Orkestrdə əvvəl ifaçı, sonra konsertmeyster, solist və dirijor kimi çalışmışdır. 1938-ci ildə orkestrin tərkibində Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyünə, 1959-cu ildə isə Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə qatılmış, həmin il respublikanın Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

A.G.Məmmədbəyli 1940-1970-ci illərdə respublikada tar tədrisi üzrə ən qabaqcıl və təcrübəli müəllim kimi hörmət qazanmışdır. A.Zeynallı adına Musiqi Texnikumunda işləməklə yanaşı, 1959-1972-ci illərdə rektor Cövdət Hacıyevin dəvəti ilə Azərbaycan Dövlət Konservatoriyasında tar ixtisası və pedaqoji təcrübə fənlərini aparmışdır.

Qeyd edək ki, Ü.Hacıbəyli tərəfindən əsası qoyulan tar tədrisində dahi bəstəkar və pedaqoqun ilk davamçıları S.Rüstəmov ilə A.G.Məmmədbəyli olmuşdur. Adil Gəray bu sahədə Ü.Hacıbəyli və S.Rüstəmov metodunu layiqincə davam etdirərək öz məktəbini yaratmışdır. Onun sinfini bitirən və müəllimliyindən bəhrələnən gənclər respublikamızın musiqi məktəblərində uğurla dərs vermiş, başladığı yolun – tar tədrisinin davamçıları olmuşlar. Təsadüfi deyil ki, Adil Gərayın sinfinə daxil olmaq nə qədər çətin idisə, sinfini əla qiymətlərlə bitirmək daha bir başucalığı idi. Bu məktəbin yetirmələri arasında görkəmli bəstəkarlar – Arif Məlikov, Nəriman Məmmədov, Dadaş Dadaşov, Adil Bəbirov, görkəmli ifaçı və pedaqoqlar – Qulu Əsgərov, Ramiz Quliyev, Həbib Bayramov, Sabir Quliyev, Sərvər İbrahimov, Ceyran Haşımova, Fikrət Verdiyev, Səid Hacıyev, Sidqi Mustafayev, Orxan Orxanbəyli, Akif Novruzov, Kamil Vəzirov, Adil İsrafilov, Novruz Aydəmirov, Ramiz Firidunbəyli, Anadollu Abbasov, Gündüz Əfəndiyev, İsrafil İsrafilov və b. vardır.

Xalq çalğı alətlərindən, xanəndəlikdən dərs verən müəllimlər də, təhsil alan tələbələr də onunla ünsiyyətə həmişə ehtiyac duyur, yeni tədris metodundan, maraqlı dərslərindən, ustad məşğələlərindən, sinif konsertlərindən və tövsiyələrindən həmişə öyrənir, məsləhət alırdılar. O, bir müddət pedaqoji elmlər üzrə tədqiqat mərkəzində çalışmış, "İbtidai məktəblər üçün nəğmə məcmuəsi"ni tərtib etmişdir. Eyni zamanda Mədəniyyət Nazirliyi nəzdində incəsənət və musiqi məktəbləri üzrə metodika kabinetinin təcrübəli üzvü kimi üzərinə düşən işi həmişə layiqincə yerinə yetirmiş, respublikanın müxtəlif bölgələrində açıq dərslər keçmiş, musiqi məktəblərində təlim-tədrisin keyfiyyətinin artması üçün əlindən gələni əsirgəməmişdir. Nazirlik tərəfindən ona "metodist müəllim", "qabaqcıl müəllim" adlarının verilməsi də məhz bu bacarığın, təcrübənin və əməyin nəticəsi idi.

Adil Gəray bəstəkar yaradıcılığını da məhz xalq çalğı alətlərinə, pedaqoji repertuarın zənginləşməsinə həsr etmişdir. İlk addımı kimi "Tar üçün etüdlər" toplusunu qeyd edə bilərik. Bu, xüsusi olaraq tar aləti üçün yazılmış texniki tədris repertuarıdır. Ona qədər S.Rüstəmovun tar üçün "Melodik etüdlər"indən və skripka etüdlərinin tar üçün köçürülməsindən istifadə olunurdu. S.Rüstəmovun və Adil Gərayın etüdləri bu günə kimi tar üçün peşəkar səviyyədə yazılmış ilk və yeganə texniki vəsaitdir. Adil Gərayın "Tar üçün etüdlər" məcmuəsi 1943-cü ildə, o hələ tələbə ikən nəşr olunmuşdur. Bu nəşrin dörd mühüm cəhətini qeyd etməliyik. Birincisi, etüdlərin elmi redaktoru Ü.Hacıbəylidir



və toplu onun müqəddiməsi ilə başlayır. İkincisi, topluya yeddi muğam əsasında yazılmış nümunə daxildir: "Rast", "Bayatı-Şiraz", "Çahargah", "Mahurhindi", "Şüştər", "Segah", "Şur" etüdləri. Yeddi muğam əsasında etüdlərin yazılması Nizami Gəncəvinin 800 illik yubileyinə həsr olunmuş və "Yeddi gözəl"ə sanki nəzirə bəstələnmişdir. Üçüncüsü, 1940-cı illərdə muğamların nota yazılmasında boşluq var idi və etüdlər yeddi muğamın nota yazılmasında və işlənilməsində vacib addım idi. Nəhayət, dördüncüsü, müəllif ilk dəfə muğamların tar üçün etüdləşdirilməsi təcrübəsinə nail olmuşdur.

Avropa instrumental ifaçılığının inkişafı nəticəsində texniki və müstəqil bədii janr kimi meydana gələn skripka, fortepiano etüdlərinə məxsus janr xüsusiyyətlərinin Azərbaycan milli muğam janrının instrumental çalğı və ənənəvi forma xüsusiyyətləri ilə sintez olunması nəticəsində "muğam etüdü" adlı yeni janrın təməli qoyulmuşdur. Bu etüdlər günümüzdə də musiqi məktəblərində, kolleclərdə və Milli Konservatoriyada tədris olunur.

Adil Gərayın ilk bəstələrindən olan xalq çalğı alətləri orkestri üçün "Cəngi" pyesi 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya musiqi ongünlüyündə S.Rüstəmovun dirijorluğu ilə səslənmiş və maraqla qarşılanmışdır. Onun xalq çalğı alətləri orkestri və xüsusilə tar ilə fortepiano üçün "Yallı", "Neftçilər rəqsi", "Zəfər marşı", "Mərdlik rəqsi" pyesləri, "Sovet Azərbaycanı" süitası, "Qaytağı", "Şahnazsayağı", "Bağçakürd", "Səfikürd", "Gülüstan", "Xatirə" əsərləri öz melodiya, intonasiya, forma, ritm kamilliyi və milli ruhu ilə tez bir zamanda rəğbət qazanmışdır. Bu əsərlər günümüzdə də ifaçılıqda və tədrisdə yaşayır.

Milli alətlərin ifa xüsusiyyətlərinə, texniki imkanlarına mükəmməl bələd olan sənətkar Avropa, rus klassik bəstəkarlarının müxtəlif janrda əsərlərinin tar, kamança tədrisinə daxil edilməsi üçün də böyük əmək sərf etmişdir. Onun təşəbbüsü və əməyi sayəsində onlarla belə əsər tar üçün köçürülərək nəşr edilmiş, tədrisə daxil olunmuşdur. Bununla həm milli alət ifaçılığı bədii və texniki cəhətdən inkişaf edir, həm də şagird və tələbələr alət vasitəsilə dünya klassikasına bələd olurlar.

O, xalq arasında sevilən "Azərbaycanım", "El bəzənsin", "Vətən nəğməsi", "Ana kəndim", "Alagöz", "Mehribanım", "Gülzar", "Yar gəldi", "Dağlar qızı", "İnsaf eylə", "Tarla", "Şirvan", "Gözlərin", "Qurucular", "Yadigar", "Boyuna qurban" və b. mahnıların da müəllifidir.

Adil Gərayın böyüyüb boya-başa çatdığı, tərbiyə aldığı mühit maarifçi ziyalı ailəsi olmuşdur. Atası Heybətqulu Məmmədbəyli Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü idi. Təəssüf ki, 30-cu illərin repressiyası onun ailəsindən də yan keçmədi və atası saxta siyasi motivlə güllələndi.

Adil Gəray Məmmədbəyli özünün fəaliyyəti və yaradıcılığı, şəxsiyyəti və ziyalılığı ilə həmkarlarının, davamçılarının, musiqi müəllimlərinin qəlbində əbədi heykəlini yaratmışdır. Məhz bu rəğbətin nəticəsidir ki, vaxtilə oxuduğu və işlədiyi Bakı Musiqi Akademiyasında onun 100 illiyi münasibətilə yaradıcılığına həsr olunmuş seminar-mühazirə keçirilmiş, xatirəsi, dəyərli fəaliyyəti və xidmətləri dərin hörmətlə bir daha yad olunmuşdur.

**Ariz ABDULƏLİYEV**
**Ü.Hacıbəyli adına BMA-nın aparıcı elmi işçisi, dosent**

## Şamaxı bölgəsinə etnomusiqi ekspedisiyası

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) elm və yaradıcılıq işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadə və BMA-nın elmi tədqiqat laboratoriyasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmayılzadənin başçılığı ilə Azərbaycanın Şamaxı bölgəsinə ekspedisiya həyata keçirilib.

Ekspedisiya heyətində BMA-nın kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor Tərlan Quliyevlə yanaşı laboratoriyanın elmi işçiləri – Xalq artisti, dosent Zümrüd Məmmədova, dosent Ariz Abduləliyev, böyük elmi işçi Rauf Bəhmənli, Aynur Çələbiyeva, bəstəkar, doktorant İlahə İsrafilova və BMA-nın magistrantı Fərhad Ələkbərov yer alırdı.

Ekspedisiya iştirakçılarını rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova və rayon Mədəniyyət mərkəzinin direktoru Rəfail Tağızadə qarşılayıb. Mədəniyyət mərkəzində regionun sənətkarları ilə görüş keçirilib.

Görüşdə iştirak edən AMEA-nın Folklor İnstitutunun əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Qaliboğlu Şamaxıda musiqi mədəniyyətinin inkişafı, Folklor İnstitutunun bu mövzuda apardığı araşdırmalar barədə danışıb, Şirvan bölgəsinin tanınmış zurna, balaban ifaçısı Əli Kərimovun fəaliyyətindən söz açaraq onun ifalarından ibarət CD diski və haqqında kitabı qonaqlara təqdim edib.

Aşıqlar Birliyinin Şirvan bölgəsi üzrə katibi, aşıq Ağamurad İsrafilov çıxışı zamanı aşıq sənətinin həm nəzəri, həm praktiki şəkildə bir çox məqamlarını nümayiş etdirib, ekspedisiya iştirakçılarının suallarını cavablandırıb. A.İsrafilovun yetirməsi Rza Məmmədovun ifasında "Güllü qafiyə", "Şəmsiqəmər", "Əli icadi" pişrovları, "Koroğlu" gözəlləməsi və s. nümunələr görüntüyə alınıb.

Yaddaqalan məqamlardan biri də Şamaxıda yaşayan göyçəli aşıq İxtiyar Qocayevin çıxışı olub. Səhnədə iki fərqli bölgə aşağının ifası ekspedisiya iştirakçılarında böyük maraq doğurub.

Ekspedisiya iştirakçıları Rasim Ələsgərov (balaban), Firudin Əkbərov (balaban), Antik Seyidov (nağara), Bəhruz Dadaşov (zurna, balaban), Şöhrət Əliyev (nağara), Rauf Fətəliyev (qoşanağara) kimi Şirvan bölgəsinin aparıcı sənətkarları ilə də yaxından tanış olublar, onların adlarını, ifalarını laboratoriyanın tədqiqat külliyyatına əlavə ediblər.

## "Rozetta daşı" heroqliflərin sirrini açacaq

Fransız imperatoru Napoleon Bonapartın əsgərlərinin 1799-cu il iyulun 15-də Misirin Rəşid qəsəbəsində qazıntı apararkən tapdıqları daş dünya tarixinin ən böyük sirrini açmağa kömək edə bilər. Londondakı "British Museum"da saxlanılan bu qədim kitabə Misir çarı V Ptolemeyin hakimiyyətinin birinci ili şərəfinə kahinlər şurası tərəfindən yazılıb.

Bəs ilk baxışdan sadə olan bu mətn nədən arxeoloqların böyük marağına səbəb olub? Bunun səbəbi "Rozetta daşı"nın üzərində dünyanın ən qədim çoxdilli mətninin olmasıdır. Ağırlığı 760 kq və eni 72 sm olan bu kitabə qranitdən hazırlanıb. Misir xalqının, kahinlərin və əyanların onu rahat oxuması üçün üç fərqli dildə yazılan mətn heroqliflərin sirrini açmağa çalışan paleoqraflar üçün ən əlverişli imkandır.

Eramızdan əvvəl 196-cı ildə yazılan kitabənin üzərində eyni mətn demotik (həmin dövrdə Misirdə gündəlik istifadə edilən dil), antik yunan (hökmdarların dili) və heroqliflə yazılıb. Alimlərin tədqiqatlarına görə, heroqlif yazısı eramızın IV əsrindən sonra istifadə olunmayıb və bu əlifba ilə bağlı məlumatlar tədricən yox olub. "Rozetta daşı" üzərində antik yunan hərflərini oxuyan mütəxəssislər bu üsulla heroqliflərin sirrini açmağa çalışırlar.

## "Hər daşın altında bir tarix yatır..."

Arxeoloqlar torpağın altında qalan gizli tarixi, mədəni mirası üzə çıxarmaqla keçmişlə müasir dövr arasında körpü yaradırlar. Azərbaycanda bu elm sahəsinin inkişafında böyük əməyi olan alimlərimizdən biri də Saleh Qazıyevdir. Görkəmli alim ötən əsrin 50-ci illərində Mingəçevir abidələrini dərindən araşdırıb.

Saleh Mustafa oğlu Qazıyev 16 sentyabr 1893-cü ildə indiki Oğuz rayonunun Xaçmaz kəndində dünyaya göz açıb. Əvvəlcə mollaxanada oxuyur, sonra təhsilini kənddə açılmış "Rövzət-ül-maarif" məktəbində davam etdirir. 20-ci illərdə Şəhər Pedaqoji Texnikumunda qiyabi təhsil alır. Sonralar həmin texnikumda, Bakı məktəblərində, Ağdaş Pedaqoji Texnikumunda çalışır. Şəki və Ağdaş rayon maarif şöbələrinin müdiri vəzifəsində işləyir.

S.Qazıyev pedaqoji fəaliyyəti ilə yanaşı tarixi və arxeoloji memarlıq abidələrinin araşdırılmasına dərin maraq göstərib. 1928-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qəbul olunur. Təhsilini başa vurduqdan sonra Azərbaycan Elmlər Akademiyasının aspiranturasında oxuyur. 1939-cu ildən indiki Milli Azərbaycan Tarixi Muzeyində işləyir. Qafqaz Albaniyasının tarixi irsi, Oğuz və Qəbələ rayonlarındakı qədim abidələrlə bağlı araşdırmalar aparır. Eyni zamanda Azərbaycan arxeologiya və etnoqrafiyasına dair məlumat və materiallar toplayır. Tunc dövründən Orta əsrlərə qədər olan dövrə aid müxtəlif abidələrin tədqiqatı ilə məşğul olur. 1941-ci ildə dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alır. Həmçinin Bakı Dövlət Universitetinin Tarix fakültəsində mühazirələr oxuyur və arxeoloqların hazırlanması sahəsində geniş fəaliyyət göstərir.

Azərbaycan Tarix Muzeyinin direktoru, sonra akademiyanın Tarix İnstitutunun arxeologiya, sonrakı illərdə isə etnoqrafiya



şöbələrinin müdiri, uzun müddət Mingəçevir arxeoloji ekspedisiyasının rəhbəri olub. O, sayı 20 mindən çox olan Mingəçevir abidələrinin ilk dəfə arxeoloji təsnifatını verib. Qədim Qəbələnin, Qazax və Ağstafa rayonu ərazisindəki abidələrin tədqiqi sahəsində böyük xidmətlər göstərib.

S.Qazıyev 40-dan çox elmi əsərin və məqalənin müəllifidir. O, Azərbaycanda arxeologiyaya aid ilk sanballı əsərin - "Azərbaycan arxeologiyası"nın müəlliflərindən biri olub. "Azərbaycanın maddi mədəniyyəti" silsiləsinin 4 cildi onun redaktəsi ilə hazırlanıb. "Azərbaycanın qədim abidələri" (1948), "Qədim Mingəçevir" (1950) əsərləri, "Mingəçevir küp qəbirləri" (1960) albomu arxeologiya elminə, tarix və mədəniyyətimizə dəyərli töhfələr hesab olunur.

Araşdırıcı Nazim Hüseynov "Oğuzdur elim mənim" adlı məqaləsində 1941-ci ildə arxeoloq Saleh Qazıyevin rəhbərliyi altında Mingəçevir abidəsinin kompleks öyrənilməsindən geniş bəhs edib.

Xalq şair Səməd Vurğun həmin illərdə "Muğan" poeması ilə bağlı Mingəçevirdə tez-tez olub. Görkəmli alimlə təkrar-təkrar görüşüb və elmi axtarışlarla bağlı maraqlı söhbətlər edib. Şairin poemada bəhs etdiyi "qoca alim" də məhz S.Qazıyev olub.

Alimin elmimizə verdiyi töhfələr yüksək qiymətləndirilib, o, "Qırmızı Əmək Bayrağı" və "Şərəf Nişanı" ordenləri ilə təltif edilib. Görkəmli arxeoloq 17 iyul 1971-ci ildə vəfat edib.

**Savalan FƏRƏCOV**

## Qədim məscidin qalıqları aşkarlanıb

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Numizmatika və epiqrafika şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, arxeoloq Akif Quliyevin rəhbəri olduğu Şamaxı-Ağsu arxeoloji ekspedisiyası tərəfindən Şamaxı rayonu Qaleybuğurd kəndi ərazisində qədim məscidin qalıqları aşkar edilib. Aparılan tədqiqatlarda müşahidəçi və bələdçi qismində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşı Yasin Nuriyev də iştirak edib.



Arxeologiya və Etnoqrafiya İnstitutundan bildirilib ki, aşkar edilmiş məscidin divarları, günbəzinin və mehrabının hissələri günümüzə qədər gəlib çıxıb. Məscid qaya və çay daşlarından inşa edilib. Tikilinin üzəri sıx kollarla örtüldüyündən abidə uzun müddət nəzarətdən uzaq qalıb. Tarixən abidə yerli sakinlər tərəfindən müqəddəs ziyarətgah kimi qəbul edilib.

Rəvayətə görə, bu qəbiristanlıqda Məhəmməd peyğəmbərin yaxın silahdaşı Şeyx Təmim əl-Dari dəfn edilib. O, Məhəmməd peyğəmbərin zamanında Şirvana gələrək İslam dinini yaymış və öldükdən sonra burada, məscidin yanında dəfn edilmişdir. Sonralar şeyxin qəbirinin ətrafında yerli sakinlər öz yaxınlarını dəfn edərək buranı qəbiristanlığa çevirmişlər.

Bununla belə, ekspedisiya rəhbərinin bildirdiyinə görə, mənbələrdə Şeyx Təmim əl-Darinin qədim Şirvanda olması haqqında məlumata rast gəlinmir. "Ərazidə aparılacaq geniş arxeoloji tədqiqatlar məscid kompleksinin dövrünün təyin edilməsi və məzarın kimə məxsus olması məsələsinə aydınlıq gətirəcək", – deyə A.Quliyev bildirib.

## Arxeoloji tapıntıların yaşını müəyyən etmək üçün metodlar

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Radiasiya Problemləri İnstitutunun aparıcı elmi işçisi, dosent Sahib Məmmədovun rəhbərlik etdiyi arxeoloji tapıntıların tarixləndirilməsi qrupu yeni nəticələr əldə edib.

İnstitutdan bildiriblər ki, qrupun gənc tədqiqatçısı, kiçik elmi işçi Aybəniz Əhədova elektron paramaqnit rezonans və termolüminessensiya metodlarından istifadə edərək Neolit dövrünə aid arxeoloji tapıntıların yaşlarını təyin edib. Tədqiqat zamanı o, Qəbələ rayonundakı Qalayeri qədim yaşayış məskənindən götürülən diş nümunəsinin eramızdan əvvəl 3514-cü ilə, Ağstafa rayonunda yerləşən Həsənsu abidəsindən götürülmüş nümunənin eramızdan əvvəl 6432-ci ilə, Bərdə rayonu ərazisində yerləşən 3 saylı Əmirli abidəsindən götürülən diş və keramika nümunələrinin isə eramızdan əvvəl 5937-ci il və eramızdan əvvəl 6189-cu ilə aid olduğunu sübut edib.

Qeyd edək ki, Radiasiya Problemləri İnstitutunda arxeoloji tapıntıların tarixləndirilməsi 3 müxtəlif metodla (radiokarbon, elektron paramaqnit rezonans və termolüminessensiya) aparılır və tapıntıların yaşı təyin olunur.

# Heykəllərlə şəhər gəzintisi

(III yazı)



Qədimliklə müasirliyin qovuşduğu Bakı şəhərində müxtəlif mədəniyyətlərin, Qərb və Şərq memarlığının, fərqli sənət cərəyanlarının izlərinə, eyni zamanda özünəməxsus sintezinə rast gəlmək olar. "Heykəllərlə şəhər gəzintisi"ndə bu dəfə paytaxtda ucaldılmış müxtəlif xalqların tanınmış şəxsiyyətlərinin abidələri haqqında söz açacağıq.

İlk olaraq böyük rus şairi, yazıçı və dramaturq Aleksandr Sergeyeviç Puşkinin (1799-1837) heykəlindən başlayaq. Şəhərin Puşkin və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsində ucaldılan abidənin açılışı 2001-ci ilin 21 oktyabr tarixində olub. Heykəlin müəllifi rus heykəltəraşı, Rusiya İncəsənət Akademiyasının akademiki Yuri Orexovdur. Tuncdan hazırlanan abidənin hündürlüyü 3 metrdir. Müəllif Puşkini ayaq üstə, rus zadəganlarına məxsus geyimdə təsvir edib.

Qeyd edək ki, bu, Bakıda Puşkinə ucaldılmış yeganə heykəl deyil. Azərbaycan Milli Kitabxanasının Rəşid Behbudov küçəsinə baxan hissəsində binanın eyvanında qoyulmuş abidələrin sırasında da rus şairinin heykəli yer alır.

Görkəmli rumın bəstəkarı Corce Eneskunun (1881-1955) heykəli 2006-cı il oktyabrın 11-də paytaxtın 8-ci mikrorayon ərazisində ucaldılıb. Heykəlin müəllifi Xalq rəssamı Natiq Əliyevdir. Müəllif C.Eneskunu dizdən yuxarı, əlində skripka ilə təsvir edib. Məşhur bəstəkar opera, simfoniya və sonataları



ilə professional rumın musiqisinin əsasını qoyub. O, Rumıniya Bəstəkarlar Cəmiyyətinin təsisçisi və prezidenti olub.

Bakıda digər bir heykəl görkəmli Ukrayna şairi və yazıçısı Taras Şevçenkonun (1814-1861) şərəfinə ucaldılıb. Azadlıq prospekti ilə A.Bakıxanov küçəsinin kəsişməsində qoyulan, 2008-ci ilin 30 iyun tarixində açılışı olan abidənin müəllifi ukraynalı heykəltəraş İqor Qreçanikdir. Bürüncdən hazırlanan heykəldə müəllif Taras Şevçenkonun gənclik çağlarını təsvir edib. Şair "Kobzar" əsərini yazanda belə görünürdü. Bu əsər T.Şevçenko ilə birlikdə abidədə təsvir olunub. Hündürlüyü 3,5 metr olan abidəni uzaqdan ağaca da bənzətmək olar.

Azadlıq prospekti və Nəcəf Nərimanov küçəsinin kəsişməsində bir abidə var. Bu, türk dünyasının tanınmış mütəfəkkir söz sənətkarı, görkəmli özbək şairi Əlişir Nəvainin (1441-1501) heykəlidir. Bakı Şəhər İcra Hakimiyyətinin sifarişi ilə hazırlanan heykəlin 11 sentyabr 2008-ci ildə açılışı keçirilib. Özbəkistanda yerli memar və heykəltəraşlar tərəfindən hazırlanan abidənin özü tuncdan, postamenti isə mərmərdəndir.

Türkiyə Cümhuriyyətinin qurucusu, məşhur "Yurdda sülh, cahanda sülh" şüarının müəllifi Mustafa Kamal Atatürkün (1881-1938) heykəli paytaxtımızda görkəmli şəxsiyyətlərə ucaldılan abidələr arasında xüsusi yer tutur. Heykəl Nəsimi rayonunda, Türkiyənin Azərbaycandakı səfirliyinin qarşısında – Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki parkda qərar tutub. Müəllifi Xalq rəssamı Ömər Eldarov olan heykəlin açılışı 2010-cu ilin 17 may tarixində gerçəkləşib.

Məşhur avstriyalı bəstəkar Volfqanq Amadey Motsartın (1756-1791) da Bakıda heykəli var. Dahi bəstəkar Üzeyir Hacıbəylinin Avstriyada heykəlinin ucaldılmasından sonra, 12 oktyabr 2011-ci ildə paytaxtımızda Motsarta abidə qoyulub. Heykəlin müəllifləri Xalq rəssamı Natiq Əliyev və Əməkdar incəsənət xadimi, memar-rəssam Çingiz Fərzəliyevdir.

Serb əsilli Nikola Tesla (1856-1943) müasir elektrik mühəndisliyinin banilərindən və dünyanın ən böyük ixtiraçılarından sayılır. O, kəşflərinin çoxunu ABŞ-da çalışarkən gerçəkləşdirib. Onun heykəli Azadlıq prospekti və Süleyman Rəhimov küçələrinin kəsişməsində yerləşən parkda ucaldılıb. 8 fevral 2013-cü ildə açılışı keçirilən abidənin müəllifləri Ömər Eldarov və memar Sənan Salamzadədir. Tuncdan hazırlanan abidənin hündürlüyü postamentlə birlikdə 3,3 metrdir. Heykəli maraqlı edən cəhətlərdən biri abidənin fonunda görkəmli alimin əsas ixtiralarından olan dəyişən cərəyan generatorunu əks etdirən dekorativ pannodur. Müəlliflər Teslanı stulda əyləşmiş vəziyyətdə təsvir ediblər.

Haqqında bəhs etdiyimiz şəxsiyyətlərə ucaldılan abidələr Bakının gözəlliyinə yeni çalarlar bəxş etməklə yanaşı, şəhərin mədəni zənginliyinə də töhfələr verir. Bu heykəllər həm də ölkəmizin multikultural məkan olmasının daha bir sübutudur.

**Nurəddin MƏMMƏDLİ**

Kitab rəfi

## Mədəniyyət Nazirliyinin dəstəyi ilə yeni nəşrlər işıq üzü görüb



Dahi Azərbaycan bəstəkarı, musiqişünas, ictimai xadim Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-fundamental əsəri Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Şərq-Qərb" nəşriyyatında nəfis şəkildə çap olunub.

Kitabda Ü.Hacıbəylinin adıçəkilən əsəri ilə yanaşı, elmi və publisistik məqalələri, ümummilli lider Heydər Əliyevin, həmçinin görkəmli musiqi xadimlərinin dahi bəstəkar haqqında çıxışları, məqalələri də toplanıb. Kitabın tərtibçisi Tariyel Məmmədovdur.

***



Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlının "Azərbaycan aşıq ədəbiyyatı" kitabı Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Şərq-Qərb" nəşriyyatında işıq üzü görüb.

Aşıq sənətinin milli tarixi səciyyəsi, ustad aşıqların ömür və sənət yolu barədə oçerklərdən ibarət kitab elmi ictimaiyyət, söz-sənət mühiti və tədris sistemi üçün nəzərdə tutulur.

***



Filologiya elmləri doktoru, ədəbiyyatşünas, Dövlət mükafatı laureatı, professor Nizaməddin Şəmsizadənin "İdrakın üfüqləri" kitabı nazirliyin dəstəyi ilə "Şərq-Qərb" nəşriyyatında çap olunub.

Kitabda mütəfəkkir tənqidçi, ədəbiyyatşünas Yaşar Qarayevin ədəbi tarixi mövqeyi və nəzəri görüşləri barəsində "İdrakın üfüqləri", müasir ədəbi tənqidin estetik problemlərinə həsr olunmuş "Tənqiddə meyarsızlıq sindromu" araşdırmaları, türkçülük məfkurəsi haqqında və başqa müxtəlif mövzularda ədəbi-fəlsəfi yazılar yer alıb.

## Nəsimi dilinin dialektoloji tədqiqi



AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin aparıcı elmi işçisi, dosent Qüdsiyyə Qəmbərovanın "İmadəddin Nəsiminin anadilli poetik əsərlərinin diaxronik-dialektoloji tədqiqi" monoqrafiyası nəşr olunub.

Monoqrafiya "Nəsiminin dili və Azərbaycan şivələri" və "Nəsimi irsinin tədqiqi məsələləri" fəsillərindən ibarətdir.

Birinci fəsildə Nəsiminin əsərlərindən seçilmiş fonetik, morfoloji, leksik dialektizmlər tarixi-müqayisəli aspektdə tədqiq olunub. İkinci fəsildə isə müəllifin Nəsimi irsinin frazeologiyası, nitq mədəniyyəti ilə bağlı məqalələri yer alıb.

## Türkdilli əlyazmaların ilk toplu kataloqu



Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Azadə Musabəylinin tərtib etdiyi dördcildlik "Əlyazmalar İnstitutundakı türkdilli əlyazmaların toplu kataloqu" çapdan çıxıb.

Toplu kataloqun elmi məsləhətçisi akademik Teymur Kərimli, elmi redaktoru filologiya üzrə elmlər doktoru Paşa Kərimovdur.

Topluya Əlyazmalar İnstitutunda saxlanılan, ümumi sayı 6121 olan bütün türkdilli əlyazmalarla bağlı biblioqrafik məlumatlar daxildir. Birinci və ikinci cildlər əsər adları üzrə, üçüncü və dördüncü cildlər şəxs (müəllif, tərcüməçi və b.) adları üzrə əlifba sırası ilə tərtib olunub.

Türkdilli əlyazmaların toplu kataloqunun hazırlanması Azərbaycanda ilk belə təşəbbüsdür.




## Xatirə təqvimi — 20-24 iyul

### Azərbaycan

**20 iyul 1903** – Əməkdar incəsənət xadimi, teatr rejissoru Baxşı Həsən oğlu Qələndərli (1903 - 14.9.1985) anadan olub. İrəvan Azərbaycan Dram Teatrının baş rejissoru işləyib, Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərib.

**21 iyul 1950** – Xalq artisti Məmmədbağır Bağırzadə (1950 - 30.10.2005) Bakının Nardaran kəndində doğulub. Xalq və bəstəkar mahnılarının unudulmaz ifaçısı, populyar mahnıların ("Kimlərə qaldı dünya?", "Yadıma düşdü") müəllifi olub.

**22 iyul** Milli Mətbuat Günüdür. 1875-ci il iyulun 22-də Azərbaycan mətbuatının müjdəçisi olan "Əkinçi" qəzetinin ilk sayı çapdan çıxıb. Həsən bəy Zərdabinin rəhbərliyi ilə iki il ərzində 56 sayı işıq üzü görən "Əkinçi" xalqımızın milli oyanışında mühüm rol oynayıb. Qəzetin maarifçi ideyaları çar Rusiyası hakim dairələrini narahat etmiş və o, 1877-ci ildə bağlanmışdı. "Əkinçi"dən sonra Azərbaycan milli mətbuatının yeni səhifələrini açan "Ziya", "Kəşkül", "Kaspi" və digər qəzetlər nəşrə başladı.

**22 iyul 1884** – Filosof və tarixçi, Azərbaycan Elmlər Akademiyasının akademiki Aleksandr Osipoviç Makovelski (1884 – 16.12.1969) anadan olub. 1920-1960-cı illərdə Azərbaycan Dövlət Universitetində dərs deyib, EA-nın Fəlsəfə İnstitutunun direktoru olub. Antik fəlsəfə, Yaxın Şərq xalqlarının fəlsəfəsinə dair tədqiqatların müəllifidir.

**22 iyul 1941** – Xalq artisti, tanınmış diktor Yusif Mehdi oğlu Muxtarov (1941 - 25.4.2010) Sabirabad rayonunun Kürkəndi kəndində doğulub. "Baladadaşın ilk məhəbbəti", "Gecə qatarında qətl" filmlərində çəkilib. Filmlərin səsləndirilməsində iştirak edib.

**22 iyul 1959** – Şair Akif Səməd (Akif Səməd oğlu Məmmədov; 1959 - 6.7.2004) Qazax rayonunun Astanbəyli kəndində anadan olub.

**23 iyul 1883** – Ədəbiyyatşünas və publisist Abdulla Sur (Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə; 1883 – 8.5.1912) anadan olub. Əsərləri: "Türk ədəbiyyatına bir nəzər", "Ədəbiyyat məcmuəsi" və s.

**23 iyul 1916** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Maral Rəhmanzadə (1916 – 16.3.2008) Bakıda anadan olub. Əsərləri Moskvada Tretyakov qalereyasında, digər xarici muzeylərdə saxlanılır.

**23 iyul 2011** – Tanınmış xanəndə, Əməkdar artist Sabir Nüsrət oğlu Mirzəyev (1942-2011) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti, muğam və xalq mahnılarının ("Çahargah", "Rast", "Qarabağın maralı") mahir ifaçısı olub.

### Dünya

**20 iyul 1304** – İtaliya intibahının görkəmli nümayəndəsi, şair Françesko Petrarka (Francesco Petrarca; 1304-1374) anadan olub.

**20 iyul 1864** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1931) Erik Karlfeldt (Erik Axel Karlfeldt; 1864-1931) anadan olub.

**20 iyul 1895** – Macar və amerikan rəssamı, fotoqraf və bəstəkar, konstruktivizm cərəyanının nümayəndəsi Laslo Mohoy-Nad (Laszlo Moholy-Nagy; 1895-1946) anadan olub.

**21 iyul 1893** – Alman yazıçısı Hans Fallada (əsl adı Rudolf Wilhelm Friedrich Ditzen; 1893-1947) anadan olub. Əsərləri: "Anton və Herda", "Sonra nə, balaca adam?", "Canavarlar içində canavar" və s.

**21 iyul 1899** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey (Ernest Miller Hemingway; 1899 – 2.7.1961) anadan olub. Əsərləri: "Kişisiz qadınlar", "Əlvida, silah", "Əcəl zəngi kimin üçün çalınır" (roman), "Qoca və dəniz" (povest) və s.

**22 iyul 1889** – Amerika rejissoru, qorxu filmlərinin yaradıcılarından Ceyms Ueyl (James Whale; 1889-1957) anadan olub. Filmləri: "Köhnə qaranlıq ev", "Gözəgörünməz adam", "Dəmir maskalı adam" və s.

**22 iyul 1926** – Rus yazıçısı Sergey Baruzdin (1926-1991) anadan olub. Əsərləri: "Qadınlar haqqında povest", "Yarpaq tökümü" və s. Uşaqlar üçün kiçik hekayələrin müəllifidir.

**23 iyul 1884** – Alman aktyoru, "Oskar" mükafatının ilk əcnəbi laureatı Emil Yanniqs (Emil Jannings; 1884-1950) anadan olub.

**23 iyul 1888** – Amerika yazıçısı Reymond Çandler (Raymond Chandler; 1888-1959) anadan olub. Əsərləri əsasında "Dərin yuxu", "İkiqat sığorta" və s. filmlər çəkilib.

**24 iyul 1802** – Fransız yazıçısı, tarixi və macəra romanlarının müəllifi Aleksandr (ata) Düma (Alexandre Dumas, pere; 1802 - 5.12.1870) anadan olub. Əsərləri: "Qraf Monte Kristo", "Üç muşketyor", "Qara zanbaq", "Kraliça Marqo" romanları, "III Henrix və onun sarayı" dramı və s.

**24 iyul 1803** – Fransız bəstəkarı Adolf Adan (Adolphe Charles Adan; 1803-1856) anadan olub. «Jizel» və «Korsar» baletlərinin müəllifidir.

**24 iyul 1828** – Rus yazıçısı və ədəbiyyatşünası Nikolay Qavriloviç Çernışevski (1828-1889) anadan olub. Əsərləri: "Nə etməli" (roman), "İncəsənətin gerçəkliyə estetik münasibəti" (kulturoloji tədqiqat) və s.

**24 iyul 1857** – Danimarka yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1917) Henrik Pontoppidan (1857-1943) anadan olub. Əsərləri: "Müqəddəs torpaq", "Xoşbəxt Pyotr", "Ölülər çarlığı".

**Hazırladı: Vüqar ORXAN**

## Tətilə kitabla gedək...

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 6 nömrəli filialı tədris ilinin bitməsi ilə əlaqədar kitabxanada "Tətilə kitabla gedək" mövzusunda aksiya keçirib.

Aksiya məktəblilərin tətildə asudə vaxtlarını səmərəli keçirmələrini təmin etmək, onlarda mütaliə vərdişləri aşılamaq məqsədi daşıyır. Kitabxanada müxtəlif sahələr üzrə kitab sərgiləri təşkil edilib. Uşaqlar sərgi ilə tanış olub, yeni kitablar götürüb və kitabxanaya üzv yazılıblar.

## Yazıçı Andrea Kamilleri vəfat edib

İtalyan prozaiki Andrea Kamilleri 93 yaşında Romada vəfat edib. İyun ayında yazıçı ürəktutması diaqnozu ilə xəstəxanaya yerləşdirilmişdi.

Andrea Kamilleri 1925-ci il sentyabrın 6-da Aqricento əyalətinin (Siciliya) Porto-Empedokl şəhərciyində anadan olub. Uzun illər Romada yaşayıb və işləyib.

Polis komissarı Montalbano haqqında silsilə romanların müəllifi Andrea Kamilleri İtaliyanın detektiv janrında yazan ən populyar yazıçılarından biridir.

2015-ci ildə Kamilleri söz sənətinə töhfəsinə və detektiv janrında klassik dünya ədəbiyyatının ən yaxşı ənənələrinə sadiqliyinə görə İtaliyada "N.V.Qoqol adına mükafat"ın laureatı olub.

№52 (1637)
19 iyul 2019
www.medeniyyet.az

# Ankarada TÜRKSOY kuboku uğrunda at yarışması təşkil olunub





Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un kuboku uğrunda ənənəvi at yarışması təşkil olunub.

Sayca üçüncü dəfə keçirilən yarışmanın açılış mərasimində TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Türkiyə Xarici İşlər nazirinin müavini Yavuz Səlim Kıran, TÜRKSOY-a üzv ölkələrin bu təşkilatdakı nümayəndələri iştirak ediblər.

Ankara 75-ci il hipodromunda gerçəkləşən yarışdan əvvəl TÜRKSOY ölkələrinin ənənəvi at oyunlarını əks etdirən fotosərgiyə baxış keçirilib.

At yarışmasının qalibləri mükafatlandırılandan sonra Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tatarıstandan (Rusiya Federasiyası) olan musiqiçilərdən ibarət TÜRKSOY-un Gənclik Kamera Xoru konsert proqramı ilə çıxış edib.

## "Çölçü" filminin yeni mükafatları

Rejissor Şamil Əliyevin "Çölçü" bədii filmi ABŞ-da keçirilən "Royal Wolf Film Awards 2019" müsabiqəsində (iyun ayı üzrə) "Ən yaxşı xarici film" mükafatına və İtaliyada "Oniros Film Awards 2019" müsabiqəsində may ayının "Ən yaxşı bədii filmi" mükafatına layiq görülüb.

Ekran əsəri eyni zamanda "Oniros Film Awards 2019"da "Ən yaxşı rejissor" və "İlin ən yaxşı bədii filmi" nominasiyalarında final mərhələsinə seçilib.

2012-ci ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan film indiyədək 50-dən çox festivalda iştirak edərək 30-dək mükafata layiq görülüb.

## Türkiyədə keçirilən festivalda Azərbaycan rəqsləri

Türkiyənin Giresun şəhərində Ağacbaşı-Kulakkaya Beynəlxalq yaylaq mədəniyyət və sənət festivalı keçirilib.



Kulakkaya yaylağında təşkil olunan festivalda "Anka" Azərbaycan rəqs sənəti qrupunun çıxışı da böyük maraqla qarşılanıb. İzləyicilər "Azərbaycan qızıyam" və "Bağımda üzüm qaldı" mahnılarının sədaları altında qrupun ifasını alqışlarla qarsalayıblar.

Qrupun rəhbəri Dərya Akdemir əslən azərbaycanlıdır. O, Türkiyənin Qars şəhərində doğulub. 2016-cı ildə yaratdığı "Anka" qrupu Türkiyədə keçirilən müxtəlif festival və tədbirlərdə Azərbaycan rəqs sənətini təmsil və təbliğ edir.

**Mehparə SULTANOVA**
**Ankara**

# Macar arxeoloqları Osmanlı qəsəbəsinin qalıqlarını aşkar ediblər

Macarıstan tarixçilərinin və arxeoloqlarının 2013-cü ildən həyata keçirdikləri Qanuni Sultan Süleymanın məzarının tapılması layihəsi başa çatıb. Arxeoloji ekspedisiya ərazidən Osmanlı qəsəbəsinin qalıqlarını da aşkar edib.



Qanuni Sultan Süleymanın məzarının Macarıstanın Zigetvar qalasındakı "Üzüm təpəsi" adlanan yerdə olduğu bildirilir. Həmin yerdə 1566-cı il Zigetvarın Osmanlı ordusu tərəfindən mühasirəsi zamanı qərargah və padşah üçün tikilmiş otağın qalıqları da aşkar edilib.

Tarixi mənbələrə görə, Qanuni Sultan Süleyman məhz bu təpədə vəfat edib. Qalanın fəthi gerçəkləşənə qədər onun ölümü gizli saxlanılıb və padşahın cənazəsi ordunun xəbəri olmadan dəfn edilib. Qala ələ keçirildikdən sonra isə Sultan Süleymanın nəşi İstanbula aparılıb. Beləliklə, buradakı müvəqqəti məzar Osmanlının Macarıstanı əsarətdə saxladığı 150 il ərzində mühüm bir ziyarət yerinə çevrilib. Onun üzərində inşa edilmiş türbə isə Avstriya ordusu Macarıstanı türklərdən geri aldıqdan sonra dağıdılıb.

Macarıstanın Peç Universitetinin professoru Norbert Rapın rəhbərlik etdiyi arxeoloji ekspedisiyanı Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Macarıstan Elmlər Akademiyası maliyyələşdirib. Beş ildən artıq davam edən tədqiqatlar nəticəsində türbənin olduğu yerlə yanaşı, buradakı Osmanlı qəsəbəsinin də qalıqları aşkar edilib. Ətrafı xəndək və divarlarla əhatə olunmuş qəsəbənin mərkəzində bir türbə, bir məscid və əsgər kazarması olub. Burada təsislərdə işləyən və orduya xidmət edən insanların yaşadığı iki məhəllə yerləşib. Evliya Çələbinin 1664-cü ildə yazdığı "Səyahətnamə"də burada binaların tikintisinin davam etdiyi qeyd olunub. Qara Mustafa Paşa da 1683-cü ildə Vyana yürüşü yolunda bu qəsəbədə qalıb, türbəni ziyarət edib.

"Tarixlə barışmaq, həm də xalqların barışmasıdır" deyən alimlər arxeoloji ekspedisiyanın nəticələrinin türk tarixi ilə yanaşı, macar tarixinə də töhfə olduğunu bildiriblər. Onlar yaxın illərdə Qanuni Sultan Süleymanın türbəsinin ziyarət yerinə çevriləcəyini istisna etmirlər. Bərpa olunan türbənin açılışının bu ilin sonunadək Türkiyə və Macarıstan rəsmilərinin iştirakı ilə keçiriləcəyi gözlənilir.

## Səyahət həvəskarları hər yerdə qiymətlərdən şikayətlənirlər

"Transwise" maliyyə şirkətinin analitikləri bu qənaətə gəliblər ki, turistlər arasında populyar olan 100-dən çox ölkədə turistlərin xərcləri artıb.

Mütəxəssislər dünyanın 139 ölkəsində avropalı səyahətçilərin xərclərini keçənilki göstəricilərlə müqayisə ediblər. 105 ölkədə səyahətçilər daha çox pul xərcləməyə başlayıblar. Yalnız 34 ölkədə qiymətlərin azalması qeydə alınıb.

Ən çox artım Misirdə müşayiət olunur. Son bir ildə buraya gələn turistlər 26,8 faiz çox pul xərcləməli olur. Meksikada 11,4 faiz, Tailandda 7 faiz, Yaponiyada və Braziliyada 6,5 faiz, ABŞ-da 6 faiz qiymət artımı qeydə alınıb.

"Transwise" şirkətinin hesablamalarına görə, Rusiyaya səyahət də 4,2 faiz bahalaşıb. Eyni zamanda bəzi ölkələrdə istirahət xərcləri azalıb. Argentinada bu göstərici 8,8 faiz, Avstraliyada 3,4 faiz, Türkiyədə 2,1 faiz həddindədir.

Araşdırmada yay fəslində ailəvi səyahət üçün ən münasib istiqamətlər də müəyyən edilib. "Şəhər istirahəti" kateqoriyasında Mərakeşin qərbində yerləşən Mərrakeş, habelə İstanbul və Afina şəhərləri turistlərin büdcəsinə münasib şəhərlər siyahısına düşüb. Çimərlik istiqamətləri arasında qiymətin və keyfiyyətin ən yaxşı nisbəti baxımından ilk beşliyə Dubay, Antalya, Türkiyənin Marmaris kurortu, Yunanıstanın Krit və Rodos adaları daxildir.

## Qədim Palmira şəhərinin barelyefləri bərpa edilir

Dəməşq Milli Muzeyində UNESCO-nun Dünya irs siyahısına daxil edilmiş və İŞİD terrorçuları tərəfindən dağıdılmış qədim Palmira şəhərinin barelyeflərinin bərpasına başlanılıb. Muzeyin direktoru Osman Səəd barelyeflərdəki insan təsvirlərinin tamamilə yox edildiyini deyib.



Direktor qeyd edib ki, barelyeflərin hissələri qədim şəhərin terrorçulardan azad edilməsindən sonra Dəməşqə gətirilib. Lakin heykəllərin bir çoxu hələ də xarabalığa çevrilmiş Palmirada qalır. Onun sözlərinə görə, qiymətli mədəniyyət abidələrinin yüksək səviyyədə bərpa olunması üçün təcrübəli mütəxəssislər dəvət edilib.

Mütəxəssislər barelyefləri köhnə fotoşəkillər əsasında bərpa edirlər. Bu prosesdə Palmiradan gətirilmiş əhəngdən istifadə edilir. Bərpa işləri Suriya hökumətinin maliyyə vəsaiti hesabına aparılır. Eyni zamanda tarixi heykəllərin üçdə ikisinin oğurlandığı və başqa ölkələrə aparıldığı bildirilir. Siyasi mülahizələr səbəbindən yaxın vaxtlarda qədim Palmira abidələrinin bərpası prosesinə beynəlxalq təşkilatların maliyyə dəstəyi istisna edilir.

Palmiranın çiçəklənməsi dövrü eramızın I-III əsrlərinə təsadüf edir. Müasir dövrədək səhrada qalmış memarlıq abidələrinin əksəriyyəti də həmin dövrə aiddir. Buradakı tarixi-mədəniyyət abidələrinin əksəriyyəti İŞİD terrorçuları tərəfindən 2016-cı ilin dekabrından 2017-ci ilin mayınadək məhv edilib.

## Kosmik turizm Yerin qorunması üzrə məsuliyyəti artıracaq

Dünyanın ən varlı adamlarından biri, milyarder Ceff Bezos kosmik turizm sahəsində layihələr həyata keçirir. O, kosmik turizmin inkişafının insanlara Yer planetini kənardan seyr etməyə və onun qorunması üzrə məsuliyyəti artırmağa kömək edəcəyi qənaətindədir.

"Amazon" və "Blue Origin" şirkətlərinin sahibi bildirib ki, kosmik turizmin həyata keçirilməsi erası 11 dəqiqəlik qısamüddətli uçuşlarla başlayacaq. "Sizin Yerin atmosferinin ən ucqar təbəqəsini görmək imkanınız olacaq və onda planetimizin nə dərəcədə müdafiəsiz olduğunu anlaya biləcəksiniz. Heç olmasa bir dəfə kosmosa uçan adamlar yaxşı bilirlər ki, onların düşüncə tərzində necə dəyişiklik baş verib. Bu insanlar planetimizin necə ecazkar, eyni zamanda kiçik və kövrək olduğunu dərk ediblər. Bu, Yer kürəsində - kosmosdan aşağıda yaşayanların anlaya bilməyəcəkləri hisslərdir", - deyə milyarder əlavə edib.

"Blue Origin" şirkəti yanvarda kosmik turizm üçün nəzərdə tutulan New Shepard pilotsuz suborbital kosmik gəmisinin onuncu sınağını keçirib.

## "Euronews" Dünya İrs Komitəsinin Bakı sessiyası haqqında süjet yayımlayıb

"Euronews" telekanalı UNESCO-nun Dünya İrs Komitəsinin 30 iyun – 10 iyul tarixlərində Bakıda keçirilən 43-cü sessiyası haqqında süjet yayımlayıb.




Süjetdə Bakı sessiyasının əhəmiyyəti, sessiyanın iclaslarında müzakirə edilən məsələlər və qəbul olunan qərarlar barədə məlumat verilir.

## "Artım"da "Ekstatik rəqs"

"YARAT" Müasir İncəsənət Məkanının "Artım" layihə məkanında "Ekstatik rəqs" adlı tədbir keçirilib. Tədbirin təşkilində əsas məqsəd yığılmış gərginliyi və stresi aradan qaldırmaq və daxili insan resurslarını ortaya çıxarmaqdır.



Bu təcrübədən keçməkdə layihənin müəllifi Səid İsmayılovun rəhbərlik etdiyi peşəkar təlimçilər iştirakçılara köməklik göstərib.

Təcrübəni azad, ani yaranmış rəqs kimi də adlandırırlar. Hər yaşda və hər hansı bir rəqs bacarığı olan iştirakçı təcrübədən keçə bilib. Təcrübə, hər şeyin dalğa və ritmik bir şəkildə hərəkət edən enerjilərdən ibarət olduğunu vurğulayan fəlsəfi məqamlara əsaslanır. Məqsəd, zehni sülhə gətirməkdir və beləliklə, bədən ruhun istəyinə uyğun hərəkət etməyə çalışır.

Bədən hərəkətinə və nəfəs almaq prosesinə diqqət yetirən insan tez zamanda mediativ duruma çatır və onun bütövlüyünü, dünya ilə əlaqəsini hiss edə bilir. "Rəqs etməyin, rəqsin özü olun" – bu praktikanın əsas ideyası budur.

## Vezuvi vulkanının virtual sərgisi

İtaliyada vulkan püskürməsi nəticəsində qədim Roma imperiyasının şəhərlərinin - Pompey, Herkulanum, Stabia və Oplontisin lava və kül altında qalaraq məhv olmasından 1940 il sonra ölkənin Erkolano şəhərində yerləşən Virtual Arxeologiya Muzeyində "Vezuvi qutuda" adlı sərgi açılıb.



Multimedialı bədii şou sərgisi Neapol bədii qalereyasını təmsil edən italyan Cennaro Reqina tərəfindən təşkil edilib.

Kurator Luka Beatris sərgiyə gələnlərə 60 metrlik LED videodivarlarda art-instalyasiyaların nümayişi də daxil olmaqla, 22 sənət əsəri vasitəsilə Vezuvi vulkanının püskürməsi hadisəsini danışır. Ziyarətçilər burada Vezuvinin istənilən mənzərəsinə tamaşa edə bilərlər.

"Vezuvi qutuda" sərgisi sentyabrın 30-dək davam edəcək.

## "Emmy" mükafatına namizədlərin adları açıqlanıb

ABŞ-da televiziya dünyasının ən nüfuzlu "Emmy" mükafatlarına namizədlərin adları açıqlanıb. 2019-cu ildə mükafata namizədliyi irəli sürülənlər arasında məşhur "Taxt-tac oyunları" serialı 32 nominasiya və HBO və SKY yayım-prodakşn şirkətlərinin lentə aldığı "Çernobıl" filmi isə 19 nominasiya üzrə jüri tərəfindən qiymətləndiriləcək.




Ən yaxşı kişi aktyor mükafatına isə Kit Harinqton ("Taxt-tac oyunları"), Sterlinq Braun ("Bu, bizik") və digər tanınmış simalar namizəd göstərilib. Emilia Klark ("Taxt-tac oyunları"), Cudi Komer ("Qətl ərəfəsi") və digərləri isə ən yaxşı aktrisa mükafatı uğrunda mübarizə aparacaqlar. Bundan başqa, ən yaxşı komediya filmləri, ikinci dərəcəli obrazların ən yaxşı ifaçısı və digər nominasiyalar üzrə mükafatlar öz sahiblərini tapacaq.

71-ci "Emmy" mükafatlarının təqdimat mərasimi sentyabrın 22-də Los-Ancelesdə keçiriləcək.

**SƏBİNƏ**

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, müxbir üzv Əbülfəz Quliyev və institutun kollektivi iş yoldaşları Ələkbər Qasımova anası – tanınmış şair, dramaturq

**Kəmalə Ağa qızı Ağayevanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

**MƏDƏNİYYƏT**

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5150
**Sifariş:** 2408
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.